RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 174 (8490) ÇƏRŞƏNBƏ AXŞAMI, 1 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycan pandemiyaya qarşı mübarizədə nümunəvi ölkədir

## İlham ƏLİYEV: "İnsanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir"

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronavituslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hospitalın açılışında videoformatda iştirak edib.

Tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşən dövlət başçısı çıxış etdi.

Ardı 2-ci səh.

## Slovakiya Respublikasının Prezidenti zati-aliləri xanım Zuzana Çaputovaya

Hörmətli xanım Prezident!

Slovakiya Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2020-ci il*

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli cənab Prezident!

Özbəkistan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda qardaş Özbəkistan xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan-Özbəkistan əlaqələri uğurla inkişaf edir. Strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş münasibətlərimiz ortaq milli, mənəvi və mədəni dəyərlərlə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır.

Əlaqələrimizin hərtərəfli inkişafı və müxtəlif sahələrdə gücləndirilməsi üçün geniş imkanlar mövcuddur. İnanıram ki, qarşılıqlı etimad və dəstəyə əsaslanan dövlətlərarası münasibətlərimizin, ikitərəfli əsasda və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın daha da dərinləşdirilməsi və möhkəmləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bəşəriyyətin COVID-19 pandemiyası ilə mübarizə apardığı bir dövrdə Azərbaycan xalqının qardaş Özbəkistan xalqı ilə həmrəy olduğunu vurğulamaq istəyirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Özbəkistan Respublikasına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2020-ci il*

## Hər kəs qanun qarşısında bərabərdir

### Prezident İlham Əliyev bütün vətəndaşları pandemiya dövründə qaydalara riayət etməyə, məsuliyyətli olmağa çağırdı

Dünyada yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxma halları sürətlə və geniş miqyasda artmaqda davam edir. Bəşəriyyət aylardır qlobal pandemiyaya qarşı savaşa qalxsa da, hələ qalib çıxa bilmir. Görünən odur ki, peyvənd tapılana qədər vəziyyət belə də davam edəcək.

### Sanitar-epidemioloji vəziyyət nəzarət altındadır

Azərbaycandan da yan keçməyən qlobal təhlükəyə qarşı ölkəmizdə mümkün effektiv və zəruri tədbirlər ardıcıllıqla həyata keçirilir. Dövlətimiz vətəndaşların sağlamlığını, təhlükəsizliyini qorumaq, virusun kütləvi yayılmasının qarşısını almaq üçün bütün imkanlardan istifadə edir, mövcud sanitar-epidemioloji vəziyyətə uyğun addımlar atılır.

Ölkəmiz pandemiyanın yayılmağa başladığı ilk günlərdən qlobal bəlaya qarşı mübarizəyə start verib. Virusun kütləvi yayılmasının qarşısını almaq, vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədilə lazımi tədbirlər vaxtında və operativ şəkildə həyata keçirilib. Azərbaycanın COVID-19-la mübarizədə uğurlu fəaliyyəti, qəbul edilmiş qərarların vaxtında və yüksək keyfiyyətlə icrası ölkədə sanitar-epidemioloji vəziyyəti nəzarət altında saxlamağa imkan verib.

Ardı 4-cü səh.

## Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının tərkibinə aşağıdakı şəxslər təyin edilsinlər:

Samir Nuriyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi

Vilayət Eyvazov - Azərbaycan Respublikasının Daxili İşlər naziri

Əli Nağıyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi.

2. "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 aprel tarixli 196 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 277; 2005, № 6, maddə 524; 2008, № 1, maddə 9; 2015, № 11, maddə 1301; 2017, № 1, maddə 51; 2018, № 6, maddə 1297; 2019, № 9, maddə 1487) ləğv edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2020-ci il*



## Tovuzun sərhəd kəndləri hər gün atəşə tutulsa da, sakinlər nikbindirlər

### Prezidentin sərəncamı ilə mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə dəymiş ziyan aradan qaldırılır

Namərd və xain düşmənin iyulun 12-dən ağır artilleriyadan və minaatanlardan atəş açması nəticəsində Tovuz rayonunun sərhəd kəndlərində mülki obyektlərə və vətəndaşların evlərinə xeyli ziyan dəydi.

Ermənilərin törətdikləri növbəti təxribat nəticəsində 6 yaşayış məntəqəsində - Ağdam, Əlibəyli, Dondar Quşçu, Vahidli, Yuxarı Öysüzlü və Aşağı Öysüzlü kəndlərində, ümumilikdə, 35 ev müxtəlif dərəcədə xəsarət aldı. İntensiv atəş nəticəsində dövlət əmlakına da xeyli ziyan dəydi. Bunlar əsasən kəndlərə çəkilən qaz boruları, elektrik naqilləri, sosial və rabitə infrastrukturudur.

Dövlət başçısı İlham Əliyev "Azərbaycan Respublikasının Tovuz rayonunu Ermənistan Respublikası silahlı qüvvələrinin intensiv atəşə tutması nəticəsində həmin kəndlərdə yaşayan mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Sərəncamla mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə dəymiş ziyanın qısa müddətdə aradan qaldırılması üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Fövqəladə Hallar Nazirliyinə tapşırıqlar verilmişdir.

Dövlət başçısının həmin sərəncamı ilə bağlı görülən işlərlə tanış olmaq üçün Tovuz rayonunda olduq. Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədovla görüşüb söhbət etdik. M.Məmmədov dedi ki, hazırda Prezidentin sərəncamının icrası ilə bağlı Tovuzda təcili tədbirlər görülür. Bu məqsədlə Tovuz rayonuna ezam edilmiş işçi qrup vəziyyətlə bilavasitə yerində tanış olmaq üçün hücuma məruz qalmış yaşayış məntəqələrində hərbi təcavüzdən zərər çəkmiş dinc əhalinin, onların əmlaklarının, dövlət obyektlərinin vəziyyətini öyrənmiş, ekspertlər tərəfindən müayinə və ekspertiza işləri aparılmışdır.

Rayon icra hakimiyyətinin başçısı onu da vurğuladı ki, hazırda sərhəd kəndləri ermənilər tərəfindən müntəzəm olaraq atəşə tutulur. İriçaplı silahlardan atılan güllələr indi də əhalini qorxu altında saxlayır. Ancaq sakinlər bilirlər ki, Azərbaycan Ordusu düşməni hər an susdurmağa qadirdir.

Ardı 6-cı səh.

**◆ Milli maraqlar naminə əməkdaşlıq**

## CXP iqtidarın gündəmə gətirdiyi islahatların yanındadır

Prezident İlham Əliyevin elan etdiyi islahatların ən mühüm özəlliyi cəmiyyət həyatının bütün sahələrini əhatə etməsidir. Məhz bu amil ölkənin kompleks inkişafına böyük töhfələr verməkdədir. Bu sırada son dövrlərdə daha da vüsət alan siyasi islahatlar partiyalar tərəfindən yüksək qiymətləndirilir.

Cümhuriyyət Xalq Partiyasının (CXP) sədri Bədrəddin Quliyevlə söhbətimiz də bu barədədir.

Ardı 5-ci səh.

## Yumşalmalara sürətli keçid pandemiya ilə effektiv mübarizənin nəticəsidir

### Zəruri qabaqlayıcı tədbirlər ölkədə sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir

Yer üzərində COVID-19 adlı virus can almaqda davam edir. Artıq koronavirusla ölüm-dirim savaşı aparılan 8-ci ayı geridə qoysaq da, virusu ram etməyə, onun çarəsini tapmağa müyəssər olunmayıb. Qarşıdan isə daha təhlükəli, eləcə də bakterial mənşəli respirator xəstəliklərin artdığı payız-qış mövsümü gəlir.

Ardı 5-ci səh.

# Azərbaycan pandemiyaya qarşı mübarizədə nümunəvi ölkədir

## İlham ƏLİYEV: "İnsanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir"

## Prezident İlham Əliyevin çıxışı

*Əvvəli 1-ci səh.*

Bu gün ölkəmizdə yeni böyük xəstəxana açılır. Bu münasibətlə sizi təbrik edirəm. İyul ayının əvvəlində həmin ərazidə birinci xəstəxananın açılışı qeyd edilmişdi. Bu açılışda mən iştirak etmişəm. O xəstəxanada çarpayıların sayı 800-dən çoxdur. Bu, ölkəmizin ən böyük xəstəxanalarından biridir. Artıq bu xəstəxanalarda COVID xəstələri müalicə alır. O gün göstəriş verdim ki, avqustun sonuna qədər həmin ərazidə daha bir xəstəxana tikilsin. Bu gün, avqustun 31-də biz buna nail ola bilmişik.

Bu gün açılan xəstəxanada 820-dən çox çarpayı mövcuddur. Ancaq qısa müddət ərzində biz bu çarpayıların sayını 1500-ə qədər artıra bilərik. Bu xəstəxananın xüsusi özəlliyi ondan ibarətdir ki, burada 130 intensiv terapiya-reanimasiya yeri vardır. Əminəm ki, bu gün açılan xəstəxananın fəaliyyəti COVID-19 ilə apardığımız mübarizədə çox önəmli rol oynayacaq.

Bildirməliyəm ki, pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır. Bu məqsədlər üçün böyük vəsait ayrılmışdır, bütün imkanlar səfərbər edilmişdir. Çünki mövcud çarpayı fondu imkan vermirdi ki, biz bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparaq. Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırılmışdır. Ölkəmizin ən gözəl və ən müasir xəstəxanası - "Yeni Klinika" açılmışdır. "Yeni Klinika"da çarpayıların sayı 600-ə yaxındır. Hazırda təqribən 400-ə yaxın çarpayı hazır vəziyyətdədir. Bununla bərabər, modul tipli 11 xəstəxana inşa edilmişdir. Bu xəstəxanalarda çarpayıların sayı 4100 səviyyəsindədir.

Onu da bildirməliyəm ki, modul tipli 7 xəstəxananın tikintisi nəzərdə tutulub. Amma hazırda buna ehtiyac yoxdur. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa oluna bilər. Ehtiyat variantı kimi biz ölkəmizin iki Olimpiya Kompleksini də xəstəxanalara çevirdik və orada da 300-dən 500-ə qədər xəstə müalicə ala bilər.

Bütün bunlar bir daha onu göstərir ki, COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir. Bu və digər amillər imkan verdi ki, biz vəziyyəti nəzarət altında saxlayaq. Bildirməliyəm ki, hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Onu da bildirməliyəm ki, bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilmişdir. Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz vaxtında bu addımı atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər vaxtında bu xəstəxanalar tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz olunub və bu gün də bu proses davam etdirilir.

COVID ilə mübarizədə bizim səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır. Bununla bərabər, laboratoriyaların sayını böyük dərəcədə - bir neçə dəfə artırmışıq. Pandemiya başlayanda bizim cəmi 6 laboratoriyamız var idi. Bu gün biz o laboratoriyaların sayını 45-ə çatdırırıq. Ölkəmizdə 900 mindən çox test keçirilibdir. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bu da təbiidir, nə qədər çox test keçirirsən, o qədər də çox yoluxma halları aşkarlanır. Bizim əsas məqsədimiz və vəzifəmiz məhz bundan ibarətdir ki, bütün yoluxanlar müayinədən keçirilsin və onlara vaxtında tibbi xidmət göstərilsin.

Bildirməliyəm ki, pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərilir. Səhiyyə sistemində çalışan insanlar prinsip etibarilə daim dövlət tərəfindən qayğı ilə əhatə olunur. Tikilmiş xəstəxanalar həkimlərin iş yeridir. Həkimlərin həm iş yerlərinin müasirləşdirilməsi, eyni zamanda, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub. Pandemiya dövründə bu diqqət daha da genişmiqyaslı olub. Təkcə onu demək kifayətdir ki, COVID xəstələrinə xidmət edən həkimlərin əməkhaqqı 3-5 misli artırılıb. Ancaq burada əsas problem həkimlərin sayındadır. Çünki heç bir ölkə bu pandemiyaya hazır deyildi. Heç kimin ağlına gələ bilməzdi ki, dünya belə bir bəla ilə üzləşəcək. Bizdə və eləcə də bütün başqa ölkələrdə həkimlərin sayı normal həyat rejiminə hesablanıb. Ona görə, əlavə həkimlərin Azərbaycana dəvət edilməsi gündəlikdə duran məsələlərdən biri idi. Hesab edirəm ki, biz operativ və səmərəli addımlar nəticəsində bu sahədə də məsələni həll etdik. Azərbaycana beş ölkədən - Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlmişdir və bu həkimlər bizə kömək göstərirlər.

Bir sözlə, görülən bütün bu işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir.



Biz müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaqdır.

Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmasda idik. Bu gün də bu təmaslar davam edir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Bu, həqiqətən də belədir. Yəni görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi - bütün bunlar, əminəm ki, bizim mübarizədə əsas rol oynamışdır. Ona görə bu gün də bu təmaslar davam edir və əminəm ki, biz birgə səylərlə bu məsələnin - COVID-in nəzarətdə saxlanmasını təmin edəcəyik. Onu da bildirməliyəm ki, Azərbaycan məsuliyyətli və beynəlxalq müstəvidə böyük nüfuz qazanmış ölkə kimi, digər ölkələrə də humanitar yardım göstərib. Artıq Azərbaycan 30-dan çox ölkəyə humanitar yardım göstərib və bu, bizim ümumi mübarizəyə verdiyimiz böyük töhfədir.

Təbii ki, pandemiya həm ölkə iqtisadiyyatına, həm də insanların sosial vəziyyətinə mənfi təsir göstərmişdir. Bu təsirin fəsadlarını azaltmaq üçün praktiki addımlar atılır. Beş milyona yaxın insan geniş sosial paketlə əhatə olunub. Həm dövlət sektorunda, həm özəl sektorda işləyənlər, eyni zamanda, işsizlər, o cümlədən qeyri-formal formada işləyənlər, aztəminatlı təbəqəyə aid olan insanlar - bütün kateqoriyadan olan insanlar dövlət tərəfindən maddi dəstəklə təmin edilib. Bu, bir daha onu göstərir ki, insanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir.

Mən bunu bəri başdan - pandemiyanın ilk günlərindən demişdim ki, insanların sağlamlığı bizim üçün prioritet məsələdir və biz bütün səylərimizi bu məsələnin həllinə istiqamətləndirdik. Təbii ki, belə olan halda iqtisadi sahədə çətinliklər də labüd idi. Ancaq hesab edirəm ki, başqa ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi sahədə də vəziyyət daha yaxşıdır. Biz yaxşı bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə pandemiya dövründə iqtisadi tənəzzül 10, 15, 20, 25 faiz səviyyəsindədir. O cümlədən Avropanın inkişaf etmiş ölkələrində yüksək səviyyədədir. Ölkəmizdə isə görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb. Hesab edirəm ki, dünyada mövcud olan ümumi mənzərəni nəzərə alsaq, bu, yaxşı göstəricidir.

Ancaq əlbəttə ki, biz postpandemiya dövrünə də hazır olmalıyıq və müvafiq göstərişlər verilibdir. Postpandemiya dövrü nə vaxt başlayacaq, bunu hələ ki, heç kim deyə bilmir. Ancaq dünyada gedən araşdırmalar, tədqiqatlar, peyvəndlərin üzərində işin aparılması ümidverici siqnallar verir. Onu da bildirməliyəm ki, biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq. Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq. Ancaq burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. Həkimlər yaxşı bilirlər ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Ona görə bütün mərhələlər, şirkətlərin apardığı bütün araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik və ümid edirəm, ondan sonra demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb. Hesab edirəm ki, biz o vaxta qədər öz addımlarımızı mövcud vəziyyətə uyğun atmalıyıq. İlk günlərdən biz bunu etmişik. Bu altı ay ərzində məhdudlaşdırıcı tədbirlərin sərtləşdirilməsi, eyni zamanda, yumşalma addımları atılmışdır və təqribən iyul ayının ortalarından başlayaraq müsbət dinamika artıq özünü büruzə verdi. Belə olan halda, əlbəttə ki, biz yumşalma addımlarımıza da başladıq və təkcə avqust ayında yumşalma tədbirlərinin sayı 3-ə çatmışdır. Əgər müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, onda əminəm ki, bundan sonra da yumşalma tədbirləri görüləcəkdir. Çünki hazırda ölkəmizdə hər gün 100-dən 200-ə qədər insan yoluxur və əvvəlki aylarla müqayisədə bu, əlbəttə ki, daha yaxşı nəticədir. Ancaq vəziyyəti daim nəzarət altında saxlamaq üçün həm gündəlik monitorinq aparılır və aparılacaqdır, eyni zamanda, yumşalma addımları elə atılmalıdır ki, xəstələrin sayı kəskin artmasın. Bu, əsas məsələdir və biz burada, əlbəttə ki, öz addımlarımızı çox ehtiyatla atacağıq. Bununla bərabər olaraq, artıq fəal açılışlara gedən ölkələrin təcrübəsinə də nəzər salacağıq. Çünki hazırda bir neçə ölkə artıq öz sərhədlərini və bir çox obyektlərini açıbdır, turistləri qəbul etməyə başlayıbdır. Ancaq biz həmin ölkələrdə nəyi görürük? Onu görürük ki, orada xəstələrin sayı kəskin artıb. O cümlədən inkişaf etmiş Avropa ölkələrinin təcrübəsinə baxsaq görərik ki, avqust ayında xəstələrin sayı ən pik həddə çatıbdır, hətta aprel ayının səviyyəsinə qalxıbdır. Baxmayaraq ki, aprel ayından yay aylarına qədər bütövlükdə dünyada, o cümlədən Avropada xəstələrin sayının azalması müşahidə olunurdu. Yəni bu, nəyi göstərir, bir daha onu göstərir ki, bu xəstəlik heç də yoxa çıxmayıb. Bu xəstəlik var və belə olan halda dövlət tərəfindən bütün lazımi addımlar atılmalıdır, eyni zamanda, vətəndaşlar da çox sadə qoruyucu metodlardan istifadə etməlidir - məsafə saxlamalıdır, maska taxmalıdır, dezinfeksiya vasitələrindən istifadə etməlidir.

Əlbəttə ki, bəzi Avropa ölkələrində xəstələrin sayında kəskin artım bizi düşündürür və daha ehtiyatlı addımların atılmasına sövq edir. Çünki bir daha demək istəyirəm ki, birinci dərəcəli məsələ insanların sağlamlığıdır. Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti doğrudan da görürük, hiss edirik, bu, real nəticələrdə öz əksini tapır, - hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir. Çünki dövlət üzərinə nə düşübsə, onu edib - qeyd etdiyim addımlar, ayrılan vəsait. Hətta baxmayaraq ki, dünyada neftin qiyməti hələ də aşağı səviyyədədir və iqtisadi sahədə tənəzzül var, biz büdcəmizi artırmışıq. Büdcəmizə əlavələr edildi, büdcə dürüstləşməsi aparıldı və bunun əsas məqsədi pandemiyaya qarşı mübarizədə daha da səmərəli addımların atılması və vətəndaşların sosial müdafiəsinin təmin edilməsidir.

Birmənalı şəkildə deyə bilərəm ki, Azərbaycanda tətbiq olunan qaydalar, vəziyyətə uyğun şəkildə atılan addımlar və karantin rejimi öz səmərəsini verir. Bunun nəticəsində artıq bir çox şəhərlərdə bütün karantin məhdudiyyətləri aradan qaldırılıb. Ancaq böyük şəhərlərdə bu qalıbdır və bizim hamımızdan asılıdır ki, daha da inamla və daha da qısa müddət ərzində əlavə yumşalma addımları ataq.

Əfsuslar olsun ki, bu gün hələ də bu vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar da mövcuddur və qaydaların kobudcasına pozulması halları da vardır. Belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyalardan olan insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək.

Mən bir daha demək istəyirəm ki, görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Hesab edirəm ki, biz buna nail oluruq. Hər şey müqayisə ilə ölçülür. COVID-lə bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirlidir, çox dəyərlidir. Mən hesab edirəm ki, biz məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatını qoruduq. Qoymadıq ki, xəstəlik geniş vüsət alsın, qoymadıq ki, bu, nəzarətdən çıxsın və bundan sonra da bunu edəcəyik. Nə qədər lazımdırsa, o qədər də edəcəyik. Əminəm ki, birgə səylər nəticəsində, həm də bundan sonra dövlətin qətiyyətli və düşünülmüş ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq.

Mən sizi bir daha bu böyük xəstəxananın açılışı münasibətilə təbrik etmək istəyirəm, həkimlərə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

* * *

Sonra Fövqəladə Hallar Nazirliyinin Tibbi və Psixoloji Yardımın təşkili şöbəsinin rəisi, tibb xidməti mayoru **Xanım Sofiyeva** bu tibb müəssisəsinin yaradılmasına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirdi, dövlətimiz tərəfindən tibb işçilərinin, həkimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə görülən işlərdən məmnunluqla danışdı. O bildirdi ki, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin bu gün açılışı olan modul tipli hospitalı ən müasir tibbi avadanlıqla təchiz olunub. Bu da öz növbəsində koronaviruslu xəstələrin müalicəsi işini yüksək səviyyədə aparmağa geniş imkan verəcək.

* * *

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalı ən müasir standartlara cavab verir. Hospitalda koronavirus infeksiyasına yoluxmuş xəstələrin müalicəsi üçün bütün şərait yaradılıb, müasir avadanlıqlar quraşdırılıb. Bu il iyulun 7-də açılan 800 çarpayılıq hospital artıq 2277 çarpayılıq tibb müəssisəsinə çevrilib. Burada hər bir çarpayı oksigen xəttinə birləşmiş cihazlarla təmin olunub. Tibb müəssisəsində ümumilikdə 267 reanimasiya çarpayısı var. Burada quraşdırılan avadanlıqlar istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə aparmağa imkan verir. Hospitalın laboratoriyalarında müxtəlif müayinələri dəqiqliklə və operativ şəkildə aparmaq mümkün olacaq. Tibb müəssisəsində yaradılan məlumatların idarəetmə sistemi sayəsində mərkəzi qərargahda müalicə prosesinə aid bütün məlumatlar qəbul edilir və müalicə prosesi bu qərargahdan idarə olunur.

Ümumilikdə ölkədə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

---

## "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 906 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dəyişiklik edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsinin gəlirlərini və xərclərini dəqiqləşdirmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 906 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1949) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədə "12 384 088,2" və "11 589 910,3" rəqəmləri müvafiq olaraq "7 832 893,4" və "12 439 910,3" rəqəmləri ilə əvəz edilsin;

1.2. 2-ci hissə üzrə:

1.2.1. 2.1-ci bənddə "10 563 404,5" rəqəmləri "6 646 940,7" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 2.2-ci bənddə "4 692,0" rəqəmləri "6 752,4" rəqəmləri ilə əvəz edilsin;

1.2.3. 2.3-cü bənddə "19 380,0" rəqəmləri "21 080,0" rəqəmləri ilə əvəz edilsin;

1.2.4. 2.4-cü bənddə "1 031 271,7" rəqəmləri "390 342,9" rəqəmləri ilə əvəz edilsin;

1.2.5. 2.5-ci bənddə "765 340,0" rəqəmləri "767 777,4" rəqəmləri ilə əvəz edilsin;

1.2.6. gəlirlərin məbləğinin cəmi göstərilən sətirdə "12 384 088,2" rəqəmləri "7 832 893,4" rəqəmləri ilə əvəz edilsin;

1.3. 3-cü hissə üzrə:

1.3.1. 3.2-ci bənddə "11 350 000,0" rəqəmləri "12 200 000,0" rəqəmləri ilə əvəz edilsin;

1.3.2. xərclərin məbləğinin cəmi göstərilən sətirdə "11 589 910,3" rəqəmləri "12 439 910,3 " rəqəmləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Neft Fondu bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2020-ci il*

---

## Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibinin formalaşdırılması ilə əlaqədar məlumat

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikasında korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya həyata keçirir.

Komissiya 15 nəfər üzvdən ibarət tərkibdə təşkil edilir. Komissiyanın 5 üzvü Azərbaycan Respublikasının Prezidenti, 5 üzvü Azərbaycan Respublikasının Milli Məclisi, 5 üzvü isə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən təyin edilir.

Yeni çağırış Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il 5 iyun tarixli Qərarı ilə parlamentin 5 üzvü Komissiyaya təyin olunub. Qərara əsasən bu siyahıya Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini Adil Əliyev, Milli Məclisin deputatları Əminə Ağazadə, Elşad Mirbəşir oğlu, Arzu Nağıyev və Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri Səfa Mirzəyev daxil edilib.

Bundan əlavə, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 2020-ci il 26 avqust tarixli qərarı ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Komissiyaya üzv təyin edilməklə həmin dövlət orqanı tərəfindən təyin olunan 5 üzvün siyahısı tamamlanıb. Onunla yanaşı, bu siyahıya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Azərbaycan Respublikasının Ədliyyə naziri, Məhkəmə Hüquq Şurasının Sədri Fikrət Məmmədov, Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri Ramiz Rzayev, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin Sədri Anar Bağırov daxildirlər.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 31 avqust tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunan Komissiya üzvləri qismində aşağıdakı şəxslər təyin ediliblər:

Samir Nuriyev - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikası Birinci vitse-prezidentinin köməkçisi

Vilayət Eyvazov - Azərbaycan Respublikasının Daxili İşlər naziri

Əli Nağıyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi.

Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın sədri Komissiyanın üzvləri arasından səsvermə yolu ilə Komissiyanın növbəti iclasında seçiləcək.

# Rusiyanın Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı olub

## Bununla bağlı "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarının reportajlarında Prezident İlham Əliyevin müsahibəsi təqdim edilib




Avqustun 30-da Rusiya Federasiyasının Rostov vilayətində "Sambek yüksəklikləri" - Böyük Vətən müharibəsinin yeni hərbi-tarixi muzey kompleksinin açılışı olub. AZƏRTAC xəbər verir ki, bununla bağlı Rusiyanın "Rossiya-24" və "Rossiya-1" televiziya kanallarında reportajlar göstərilib, əsasən azərbaycanlılardan ibarət olan 416-cı Taqanroq diviziyasının qəhrəmanlıqları barədə geniş məlumat verilib. Reportajlarda Prezident İlham Əliyevin müsahibəsi təqdim olunub.

**APARICI:**

- Bu gün Rostov vilayətində "Sambek yüksəklikləri" adlı xalq hərbi-tarix muzeyinin açılışı olub. Bu addakı "xalq" sözü təsadüfi deyil, çünki muzey veteranların və ləpirçilərin təşəbbüsü ilə yaradılıb. Sambek şiddətli döyüşlərin keçirildiyi yerdir. 1941-ci ildə faşistlər Rostova can atanda da, 1943-cü ildə bizimkilər hücuma keçəndə də. Bu yüksəklik təkcə Rusiya üçün deyil, həm də Azərbaycan üçün vacibdir. Bu gün Azərbaycan Prezidenti də həmin hadisələr barədə danışıb.

Veronika Boqmanın reportajında deyilir ki, muzey kompleksi real döyüşlərin baş verdiyi ərazidə yerləşir. 160 kilometrlik Mius cəbhə xətti boyunca 14,5 hektar döyüş sahəsidir.

Rostov vilayətinin qubernatoru **Vasili QOLUBEV:**

- Hitlerçilərin bizim diyarda törətdikləri dağıntı, barbarlıq və qeyri-insani hərəkətlər o vaxta qədər tarixdə görünməmişdi. Böyük Vətən müharibəsinin veteranları və iştirakçıları barədə xatirəni hər bir ailədə qayğı ilə qoruyub saxlayırlar. 2017-ci ilin baharında buradakı Şöhrət xiyabanında 325 döyüşçü ehtiramla torpağa tapşırılıb, onlardan 19-nun adı müəyyən edilib.

Reportajda bildirilir ki, hərbi-tarix muzeyi İnformasiya-Sərgi Mərkəzi, balaca kilsə, amfiteatr, alma bağı da daxil olmaqla, 8 açıq məkandan ibarətdir. Burada hitlerçilərin istehkam maketləri də qurulub. Təkcə ön xətdə 3 min kilometrə yaxın xəndək qazılmışdı. Bu, Berlinə qədər məsafədən iki dəfə çoxdur.

Sambek yüksəklikləri Mius çayının sağ sahilində Donetsk diyarının cənub yamaclarındakı yüksəkliklər, təpələr, kurqanlar silsiləsidir. Bu kurqanlardan ən ucası buradan 40 kilometr məsafədə yerləşən Saur-Mogila kurqanıdır. Onun hündürlüyü 277,9 metrə bərabərdir. Faşistlər burada, Sambekdə dəniz səviyyəsindən 80-100 metr yüksəklikdə onların əlçatmaz olması üçün nə mümkündürsə edirdilər.

Mius cəbhəsinin döyüşçülərinin xatirəsinə ilk memorial burada 1980-ci ildə, Qələbənin 35 illiyi şərəfinə ucaldılıb. Həmin memorial Azərbaycan Respublikasının vəsaiti hesabına və onun fəal iştirakı ilə inşa edilmişdi. Açılış mərasiminə Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti gəlmişdi.

Ulu Öndər **Heydər ƏLİYEV:**

- Don torpağında ucaldılmış möhtəşəm monument Rostov vilayəti və Azərbaycan zəhmətkeşlərinin bu döyüşlərin sağ qalmış və həlak olmuş bütün qəhrəmanlarının nəcib xatirəsinə hörmət və minnətdarlıq əlamətidir.

**Prezident İlham ƏLİYEV:**

- Bu, təsadüfi deyildi. Çünki Rostov vilayətini azad etmiş 416-cı Taqanroq atıcı diviziyasının döyüşçülərinin 90 faizindən çoxu əslən Azərbaycandan idi. 416-cı Taqanroq diviziyası təkcə Rostovu deyil, bütün Rostov vilayətini, o cümlədən Taqanroq şəhərini azad edib, bundan sonra diviziyaya Taqanroq adı verilib. Melitopol, Kişineu, Odessa şəhərlərini də 416-cı diviziya azad edib. Bu diviziya uğurla həyata keçirilmiş Mozdok əməliyyatında xüsusilə fərqlənib. Əslində, bu əməliyyat Bakı şəhərinin faşistlər tərəfindən tutulmasının qarşısını alıb. Əks halda, Böyük Vətən müharibəsinin nəticələri fəlakətli olardı. O dövrdə cəbhə üçün yanacağın 80 faizini və sürtkü yağlarının 90 faizini Azərbaycan təchiz edirdi. Əgər Azərbaycan və onun mədənləri faşistlərin əlinə keçsəydi, müharibənin nəticəsi tamam başqa olardı.

Reportajda deyilir: Bəli, Don faşistləri təkcə ucsuz-bucaqsız məhsuldar tarlalara malik olan taxıl mənbəyi kimi cəlb etmirdi. Qafqazın qapısı, Maykopa, Qroznıya, Bakıya, daha sonra Fars körfəzinə gedən yollar buradan başlanırdı. 416-cı diviziyanın Mius cəbhəsində olduğu yarım il ərzində o, böyük itkilərə məruz qaldı, üç dəfə heyətini dəyişdi.

**Prezident İlham ƏLİYEV:**

- Azərbaycan bizim ümumi Qələbəmizə layiqli töhfə verib. 128 Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Azərbaycanda hərbi texnika istehsal edilirdi. Müəssisələr gecə-gündüz işləyirdi. Qeyd etməliyəm ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib. Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb.

Reportajda deyilir ki, bu nadir kadrlarda və fotoşəkillərdə 1945-ci il mayın 2-də Berlinin rəmzi üzərində Qələbə bayrağının sancılması görünür. Həmin hadisələrin iştirakçılarından biri doğma dağ kəndində 37 nəvəsinin və 19 nəticəsinin əhatəsində alay yoldaşlarını salamlayır.

İkinci Dünya müharibəsi veteranı **Əliş XƏLİLOV:**

- Taqanroq diviziyasının salamat qalmış bütün döyüşçülərini salamlayıram və muzeyin açılışı münasibətilə təbrik edirəm.

**Prezident İlham ƏLİYEV:**

- Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik. Azərbaycanda veteranlar diqqət və qayğı ilə əhatə olunub, biz həmişə faşistlərin qəhrəmanlaşdırılmasının əleyhinə, faşizm üzərində Qələbədə Sovet İttifaqının rolu haqqında tarixi həqiqətin qorunub saxlanması naminə çıxış etmişik və edirik. Əminəm ki, bunu yeni memorialın açılması da göstərəcək. Biz çalışırıq ki, gələcək nəsillər ata və babalarımızın igidliyini unutmasınlar, onlar ümumi Qələbəmizi müqəddəs bir dəyər kimi yad etsinlər, ümumi Qələbəmizə sanballı və həlledici töhfə verənlər haqqında həqiqəti bilsinlər.

Bu memorial kompleksin açılışı münasibətilə veteranları, Rusiya və Azərbaycan xalqlarını təbrik etmək, veteranlara cansağlığı və firavanlıq arzu etmək istəyirəm.

Reportajda deyilir: Ləpirçilər Mius cəbhəsində həlak olmuş azərbaycanlıları hələ də tapırlar. Bu xiyaban burada bizim günlərdə yaranıb. Hər bir ağacın altında müəyyən edilməsi mümkün olmuş adlar yazılmış lövhəciklər var.

Arsenti Yevterev də artıq naməlum əsgər sayılmır. Onun yaxınları cəbhə xətti doğma xutora yaxınlaşanda bu ailə ilə son görüş barədə bir-birinə xatirələr söyləyirlər.

Arsenti Yevterevin nəvəsi **Nataliya QOLOVAÇ:**

- O, uşaqlarını, həyat yoldaşını öpdü, balaca oğlunu qucağında bir qədər saxladı, ağlayaraq getdi.

Bir müddət Mius cəbhəsi barədə bilirdilər, amma susurdular. Həqiqəti söyləmək münasib hesab edilmirdi. İtkilər çox olub...

Reportajda bildirilir ki, muzey kompleksində həm veteranların ailə arxivlərindən, həm də döyüş meydanından toplanan minlərlə artefakt nümayiş olunur. Muzeyin yaradılması və fəaliyyətində ən müasir texnologiyaların tətbiqinə geniş yer verilib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti dünya mətbuatında















İndoneziyanın saytları Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətindən bəhs edən məqalələr yayıb.

"Asean Youth", "Telusur", "Gprioryti", "Minanews" saytlarında dərc olunmuş "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır", "Mehriban Əliyevanın fəaliyyətinin əsasında xalqa məhəbbət dayanır", "Vətənini və xalqını sevən Mehriban Əliyeva", "Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva" adlı məqalələrdə qeyd olunur ki, ölkəsinin inkişafına xidmət, sosial məsələlərin həlli, şəfqət və mənəviyyat ideyalarına sədaqət, ehtiyacı olanlara yardım Mehriban Əliyevanın həyat fəlsəfəsinin əsasını təşkil edir. Vətənini və xalqını böyük məhəbbətlə sevən Mehriban Əliyeva Prezident İlham Əliyevlə çiyin-çiyinə dayanaraq Azərbaycanın tərəqqisinə mühüm töhfələr verir.

AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" adlı məqaləsinə istinadla dərc olunan yazılarda uzun müddətdir Heydər Əliyev Fonduna rəhbərlik edən Mehriban Əliyevanın UNESKO və ICESCO kimi beynəlxalq humanitar təşkilatların xoşməramlı səfiri olaraq dünya mədəni irsinin qorunması, Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda tanıdılması işinə töhfələrindən bəhs edilir. Qeyd olunur ki, məhz onun səyləri nəticəsində UNESKO Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası 2019-cu ilin iyulunda Azərbaycanda keçirilib və burada beynəlxalq əhəmiyyətli qərarlar qəbul edilib.

Məqalələrdə vurğulanır ki, Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində əsas diqqəti sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə yönəldib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkünə çevrilmiş 300 mindən çox insanın həyat şəraiti qısa müddətdə yaxşılaşdırılıb. Bir il ərzində beş mindən çox məcburi köçkün ailəsi yeni mənzillərə köçürülüb. Ermənistan ordusunun cəbhə xəttində törətdiyi iğtişaşlar nəticəsində yaralanan azərbaycanlı əsgər və zabitlərin müalicəsi təşkil edilib.

Yazılarda Mehriban Əliyevanın rəhbərliyi ilə Azərbaycanda COVID-19 pandemiyasına qarşı həyata keçirilən tədbirlər, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsi barədə məlumatlara da geniş yer verilib.

Azərbaycanın Birinci vitse-prezidentinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində müstəsna xidmətlərindən bəhs edən məqalələrdə, eyni zamanda, bu məqsədlə Heydər Əliyev Fondunun təşəbbüsü ilə müxtəlif ölkələrdə təşkil edilən tədbirlər barədə də məlumat əksini tapıb.

Məhz çoxşaxəli və yorulmaz fəaliyyətinə görə Mehriban Əliyevanın bir sıra beynəlxalq mükafatlara layiq görüldüyü diqqətə çatdırılır. Vurğulanır ki, Azərbaycanın Birinci vitse-prezidentinin ən böyük mükafatı isə xalqının ona olan məhəbbəti və hörmətidir.

Qeyd edək ki, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti barədə məqalələr AZƏRTAC-a istinadla Çinin "China Daily" qəzeti, Avropa İttifaqının "EU Politics" portalı, Avropa Xəbər Agentliyi, Qazaxıstanın, Rumıniyanın, Moldovanın, Bolqarıstanın, Xorvatiyanın, Yunanıstanın, Rusiyanın, Qırğızıstanın, Özbəkistanın, Yaxın Şərq və Şimali Afrika ölkələrinin kütləvi informasiya vasitələri tərəfindən də yayılıb.

* * *

Qazaxıstanın "Newsroom" və "Saraptime" portallarında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva haqqında məqalələr dərc edilib.

Məqalələrdə Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyətini səciyyələndirən əsas məqamlar oxucuların diqqətinə çatdırılır.

AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazılarda xüsusilə də onun dünya mədəni irsinin qorunması, sivilizasiyalararası dialoqun möhkəmləndirilməsi işinə verdiyi töhfələr qeyd edilir. Siyasəti mərhəmət və şəfqət kimi bəşəri dəyərlərlə zənginləşdirən, hər bir sahədə xoş məramı ilə fərqlənən Mehriban Əliyevanın Vətəninin tərəqqisinə xidmət etdiyi, ölkəsinin mədəniyyətinin, təhsilinin, səhiyyəsinin, idmanının inkişafına çalışdığı vurğulanır. Həmçinin Mehriban Əliyevanın Azərbaycan tarixini, mədəni irsini, həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində mühüm işlər gördüyü qeyd olunur. Onun fəaliyyətinin dünyada sülh, sabitlik, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəldildiyi bildirilir.

Qeyd edilir ki, Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində əsas diqqəti sosial məsələlərə, əhalinin aztəminatlı təbəqəsinin problemlərinin həllinə yönəldib.

Bundan başqa, məqalələrdə Birinci vitse-prezidentin rəhbərliyi ilə COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərindən, Heydər Əliyev Fondunun dəstəyi ilə modul tipli xəstəxanaların istifadəyə verilməsindən də bəhs olunur.

* * *

İtaliyanın "Eurasianews" xəbər agentliyi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva haqqında məqalə yayıb.

Məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən, xeyirxah əməllərindən, sivilizasiyalararası dialoqa töhfələrindən, Azərbaycanın dünyada tanıdılması istiqamətində gördüyü işlərdən bəhs edilir.

AZƏRTAC-ın "Vətəninə və xalqına xidmət Birinci vitse-prezident Mehriban Əliyevanın həyat amalıdır" sərlövhəli məqaləsi əsasında hazırlanan yazıda xüsusilə oxucuların diqqəti Mehriban Əliyevanın UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri kimi dünya mədəni irsinin qorunması, mədəniyyətlərarası dialoqun, multikultural dəyərlərin təşviqi işinə verdiyi töhfələrə cəlb olunur. Vurğulanır ki, Birinci vitse-prezidentin fəaliyyəti təkcə öz ölkəsinin maddi və mənəvi mədəni irsinin təbliğinə deyil, eyni zamanda, dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəlib.

Məqalədə oxuculara Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsində gördüyü işlər də diqqətə çatdırılır. Bildirilir ki, onun fəaliyyətində əhalinin həssas təbəqələrinin, o cümlədən məcburi köçkünlərin problemlərinin həlli xüsusi yer tutur. O, Birinci vitse-prezident kimi ilk müşavirəsini qaçqın və məcburi köçkün ailələrinə həsr edib. Bundan başqa, Mehriban Əliyeva Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralanan hərbçilərə qayğı göstərir. Onun təşəbbüsü ilə ölkədə təhsil, səhiyyə, mədəniyyət, idman sahələrində irimiqyaslı layihələr icra edilir.

* * *

Mərakeşin həftəlik "Əl-İslah və Əl-Tənmiyə" qəzetində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva barədə məqalə dərc olunub.

Azərbaycanın Mərakeşdəki səfiri Oktay Qurbanovun müəllifi olduğu məqalədə Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətindən bəhs edilir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun gördüyü işlər diqqətə çatdırılır.

Bildirilir ki, Mehriban Əliyevanın fəaliyyəti beynəlxalq aləmdə yüksək qiymətləndirilir, o, bir çox ölkələrin yüksək mükafatlarına layiq görülüb.

Birinci vitse-prezident Azərbaycanın inkişafına, ölkənin beynəlxalq miqyasda tanıdılmasına, xalqın sosial problemlərinin həllinə mühüm töhfələr verir.

Gördüyü işlər Mehriban Əliyevaya Azərbaycan xalqının böyük hörmət və məhəbbətini, inam və etimadını qazandırıb.

# "LUKOYL" neft şirkətinin prezidenti cənab Vahid Ələkbərova

Hörmətli Vahid Yusuf oğlu!

Sizi əlamətdar yubileyiniz - anadan olmağınızın 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Sizin peşəkarlığınız və təşkilatçılıq istedadınız sayəsində bu gün "LUKOYL" dünyada ən iri neft-qaz şirkətlərindən biridir.

"LUKOYL" şirkətinin bizim ölkəmizdə çoxillik səmərəli fəaliyyəti Azərbaycan-Rusiya qarşılıqlı iqtisadi əlaqələrinin genişlənməsinə mühüm töhfə verir, bununla da Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə şərait yaradır.

Sizə uzun ömür, möhkəm cansağlığı, firavanlıq və yeni uğurlar arzu edirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 31 avqust 2020-ci il*

# V.Y.Ələkbərovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında qarşılıqlı əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Vahid Yusifoviç Ələkbərov "Dostluq" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2020-ci il*

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 34 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 34 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Nerkin Karmirağbur, Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində, Cəmbərək rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Prezidentin köməkçisi ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən QHT-lərlə görüşüb

Avqustun 31-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən 41 QHT-nin sədri ilə görüş keçirib. Bu barədə AZƏRTAC-a Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası Katibliyinin Mətbuat xidmətindən məlumat verilib.



Görüşdə IDEA - Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov, "EkoSfera" Sosial- Ekoloji Mərkəzinin sədri Firuzə Sultanzadə, "Qafqaz" Regional Ekoloji Mərkəzin sədri Mələk Şükürova, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov, "Ekoleks" Ekoloji Hüquq Mərkəzi İctimai Birliyinin icraçı direktoru Samir İsayev, "Ekoloji Tarazlıq" İctimai Birliyinin icraçı direktoru Aytən Poladova, "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru Pərvanə Vəliyeva, "Sudan İstifadə sahəsində Mütəxəssislər" İctimai Birliyinin sədri Ramiz Məmmədov, "Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri Yazgül Abdıyeva, "Ruzgar" Ekoloji İctimai Birliyinin sədri İslam Mustafayev, Milli Ekoloji Proqnozlaşdırma Mərkəzinin sədri Telman Zeynalov, "Alyans" Canlı Aləmin Mühafizəsi İctimai Birliyinin sədri Mənsurə Rəsulzadə, "Biosfer" İctimai Birliyinin sədri Qorxmaz İbrahimli, "Eko Aləm" İctimai Birliyinin sədri Sevil Yüzbaşeva, "EkoTES" ekoloji tədqiqatlar və maarifçilik İctimai Birliyinin sədri Çingiz Nəzərov, "Sağlam Həyata Doğru" Ekoloji İctimai Birliyinin sədri Sadiq Həsənov, "Ana Kür" ekoloji problemlərin öyrənilməsinə kömək İctimai Birliyinin sədri Rüstəm Məlikov, "Aran" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Nəsirəddin Kərəmov, "Ekoloji İnformasiya" İctimai Birliyinin sədri Musa Muradlı, "Şəfəq" Ekoturizm İctimai Birliyinin sədri Vamiq Babayev, "Ekologiyanın Qorunmasına Kömək" İctimai Birliyinin sədri Sadıq Sadıqov, "Ekoloji Maarifçilik və Monitorinq" İctimai Birliyinin sədri Qəmzə Yusubova, "Sosial-İqtisadi və Ekoloji Tədqiqatlar Mərkəzi" İctimai Birliyinin sədri Ramiz İsgəndərov, "Sosial - İqtisadi və Ekoloji İnkişaf" İctimai Birliyinin sədri Rahilə Mehtiyeva, "İnkişafa Doğru Qadın Təşəbbüsü" İctimai Birliyinin sədri Ziba Nəbiyeva, "Leykozlu Uşaqlara Dəstək" İctimai Birliyinin icraçı direktoru Emin Nəbili, "Hemofiliyalı Xəstələr" İctimai Birliyinin sədri Ayaz Hüseynov, "Uzunömürlülər Diyarı" ekologiya və infrastrukturun bərpası İctimai Birliyinin sədri Nazim Ağayev, "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli, "Pediatrik Kardiologiya və Revmatologiya" İctimai Birliyinin sədri Sveta Rəfiyeva, "Yoluxucu Xəstəliklərlə Mübarizə" İctimai Birliyinin sədri Fikrət Xəlilov, "Azərbaycan Diabet Liqası" İctimai Birliyinin sədri Yeganə Sultanova, "Autizm" defektoloji və psixoloji yardım mərkəzi İctimai Birliyinin sədri Çiçək Məmmədli, "Autizm Assosiasiyası" İctimai Birliyinin sədri Elnur Məmmədov, "Əczaçılar Klubu" İctimai Birliyinin sədri Şövqi Bünyatov, "Psixososial Reabilitasiya və İnkişaf" İctimai Birliyinin sədri Lamiyə Kərimova, "Rəqəmsal İnkişaf" İctimai Birliyinin sədri Könül Ağayeva, "AIDS-lə Mübarizə" İctimai Birliyinin sədri Nofəl Şərifov, "Səma və Eko" Sosial İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova, "Qan Donorları Assosiasiyası" İctimai Birliyinin sədri Fuad Əsgərov və "Leykemiya ilə Mübarizə" İctimai Birliyinin sədri Mehriban Bağırova iştirak ediblər.





Görüşü giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev bildirib ki, QHT-hökumət dialoqu çərçivəsində təşkil edilən 4-cü görüş ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən ictimai təşkilatlardır. Bu sahəni əhatə edən mövzular şuranın hər il elan etdiyi qrant müsabiqəsində xüsusi çəkiyə malikdir və indiyədək yüzlərlə QHT dövlətin maliyyə dəstəyindən faydalanıb. Azay Quliyev Prezident İlham Əliyevin ictimai nəzarətin gücləndirilməsinin vacibliyi ilə bağlı verdiyi tapşırıqlar sırasında su ehtiyatlarının qiymətləndirilməsinin də olduğunu nəzərə alaraq Prezidentin köməkçisi Hikmət Hacıyevin sudan səmərəli istifadə, ətraf mühitin mühafizəsi və səhiyyə sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşünün xüsusi önəm daşıdığını deyib.

Prezidentin köməkçisi Hikmət Hacıyev bugünkü görüşün əhəmiyyətinə toxunaraq ekologiya, sudan səmərəli istifadə və səhiyyə istiqamətində fəaliyyət göstərən QHT rəhbərlərinin prioritet hesab etdiyi fikir və ideyalarını dinləmək və gələcək əməkdaşlıq perspektivlərini müzakirə etmək istədiyini bildirib. O deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, bir sıra milli parklar yaradılıb, yeni meşə zolaqları salınıb, Bakının və Abşeronun ekoloji vəziyyətində müsbət yeniliklər baş verib, əhalinin içməli su ilə təchizatı, ətraf mühitin mühafizəsi, bioloji müxtəlifliyin qorunmasına diqqət artırılıb, eyni zamanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına yönəldilən tədbirlər uğurla həyata keçirilib.

Hökumətin ekologiya və su təsərrüfatı sahəsində fəaliyyət göstərən QHT-lərlə yaxından əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini deyən Hikmət Hacıyev vurğulayıb ki, 2020-ci il iyulun 23-də su təsərrüfatının vəziyyətinə həsr olunan onlayn müşavirədə Prezident İlham Əliyev ictimai nəzarətin həyata keçirilməsində QHT-ləri fəal olmağa çağırıb: "Cənab Prezident bildirdi ki, su ehtiyatlarımızın qiymətləndirilməsində və su ehtiyatlarını artırma ehtimalının dəyərləndirilməsində və bütün digər işlərdə alimlər mütləq iştirak etməlidirlər. Bu prosesə qeyri-hökumət təşkilatları cəlb edilməlidir. Dövlət qurumlarının görə bilmədiyi məsələləri onlar diqqətə çatdıracaqlar. Prezidentin bu çağırışı hesab edirəm ki, QHT-lərin fəaliyyəti üçün böyük stimuldur".

Prezidentin köməkçisi Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsinə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mühüm töhfələr verdiyini vurğulayıb. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2019-cu ildə İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi ölkəmizin ekoloji durumuna çox müsbət təsir göstərib. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.

Hikmət Hacıyev müxtəlif QHT-lərin ətraf mühitin mühafizəsi sahəsində həyata keçirdiyi layihələrin, xüsusilə maarifçilik işləri insanların ətraf mühitə münasibətini müsbətə doğru xeyli dəyişdiyini qeyd edib.

Prezidentin köməkçisi region üçün ciddi təhlükə mənbəyinə çevrilən "Metsamor" AES-dən Ermənistanın həm də radioaktiv maddələrin qaçaqmalçılığı üçün istifadə etdiyini bildirib. O, ətraf mühitin mühafizəsi istiqamətində fəaliyyət göstərən QHT-ləri beynəlxalq ictimaiyyətin diqqətini "Çernobıl" Atom Elektrik Stansiyasında istifadə olunan texnologiya əsasında inşa edilən "Metsamor" AES-in yaratdığı təhlükəyə yönəltməyə çağırıb.

Hikmət Hacıyev Ermənistanın ölkəmizə qarşı ekoloji terrorizm və onun tərkib hissəsi olaraq "su terroru" siyasəti apardığını və Avropa Şurası Parlament Assambleyasının 2016-cı ildə "Azərbaycanın sərhəd rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi" haqqında xüsusi qətnamə qəbul etdiyini deyib. O, Ermənistanın işğal etdiyi ərazimizdə yerləşən Sərsəng su anbarından Azərbaycan vətəndaşlarının su təminatının, kənd təsərrüfatı fəaliyyətinin pozulması, ərazinin biomüxtəlifliyinin məhv olması kimi zərərli və təhlükəli məqsədlər üçün istifadə etdiyini qeyd edib.

Daha sonra Hikmət Hacıyev bildirib ki, Azərbaycan əhalisinin sağlamlığının qorunması üçün görülən işlərə və bu sahədə yaradılan müasir infrastruktura görə də seçilir. COVID-19 pandemiyası ilə mübarizədə hökumətin gördüyü təsirli tədbirlər öz nəticəsini verdi və biz pandemiyanı tam nəzarətdə saxlamağa nail olduq. Pandemiya ilə mübarizədə, maarifləndirmə işlərində və ümummilli həmrəyliyin təmin olunmasında QHT-lərin fəal iştirakı təqdir olunur və bu fəallıq bundan sonra da davam etdirilməlidir.

Hikmət Hacıyev Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərinin vəhşicəsinə və qanunsuz istismarı nəticəsində ekoloji tarazlığın kobud şəkildə pozularaq təhlükəli həddə çatdığını bildirib. Prezidentin köməkçisi QHT-lərin dünyanın nüfuzlu beynəlxalq təşkilatlarını Ermənistanın Azərbaycana qarşı apardığı ekoloji terrorun fəsadları barədə davamlı və sistemli şəkildə məlumatlandırmasının, işğalçı ölkədən beynəlxalq təşkilat və məhkəmələrə müraciət etməsinin zəruri olduğunu qeyd edib.

Prezidentin köməkçisi dövlətin QHT-lərdən çalışdıqları istiqamət üzrə ictimai nəzarətin həyata keçirilməsində yaxından iştirak etmək, əhalini ətraf mühitin qorunmasında fəal iştiraka, habelə sudan səmərəli istifadə etməyə təşviq edən maarifləndirmə kampaniyaları təşkil etmək, innovativ ideya və təkliflərlə çıxış etmək, sudan səmərəli istifadə ilə bağlı mövcud olan problemləri öyrənmək üçün araşdırmalar aparmaq, əsaslandırılmış təkliflər vermək, dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmək, beynəlxalq ekoloji QHT hərəkatlarında və şəbəkələrində təmsil olunmaq, beynəlxalq ekoloji kampaniyalarda (Ətraf Mühit Günü, Dünya Yer Günü, Dəniz Günü, Dünya Su Günü və s.) Azərbaycan vətəndaş cəmiyyətinin dəstəyini ifadə etmək kimi gözləntilərinin olduğunu deyib.

QHT rəhbərləri çıxışlarında yenicə başlayan QHT-hökumət dialoquna və bugünkü görüşə görə Hikmət Hacıyevə təşəkkürlərini çatdırıblar. QHT rəhbərləri fəaliyyət göstərdikləri sahədə mövcud vəziyyət və problemlərin həlli yolu ilə bağlı fikir və təkliflərini bildiriblər.

Yekunda çıxış edən Prezidentin köməkçisi Hikmət Hacıyev QHT-lərin irəli sürdüyü təkliflərin araşdırılacağını və əsaslandırılmış hissəsinin nəzərə alınacağını, o cümlədən dövlət qurumları ilə QHT-lərin birgə əməkdaşlıq imkanlarının genişləndirilməsi, ictimai nəzarətin gücləndirilməsi məqsədilə müvafiq addımların atılacağını qeyd edib.

Məlumat üçün qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

# Hər kəs qanun qarşısında bərabərdir

*Əvvəli 1-ci səh.*

COVID-19 infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində həyata keçirilən preventiv tədbirlər nəticəsində, eləcə də əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına daha ciddi və məsuliyyətlə əməl etməsi, dövlət-vətəndaş həmrəyliyi sayəsində yoluxma hallarının kəskin azalmasına nail olunub. Sanitar-epidemioloji vəziyyətə uyğun olaraq avqustun 5-dən sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi məhdudiyyətlər aradan qaldırılıb və yumşalmalara keçilib. Bununla bərabər, əldə olunmuş uğurların möhkəmləndirilməsi, insanların həyat və sağlamlığının səmərəli qorunması məqsədilə, eləcə də dünyada COVID-19 pandemiyası ilə əlaqədar vəziyyətin hələ də qeyri-qənaətbəxş olduğu nəzərə alınaraq, Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkə ərazisində tətbiq olunan xüsusi karantin rejiminin 30 sentyabr saat 00:00-dək uzadılması qərara alınıb.

Həmçinin virusa yoluxma dinamikasına və mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Yevlax şəhərləri və Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonları 31 avqustdan etibarən sərt karantin rejimi zonasından çıxarılıb. Yoluxma hallarının yüksək olduğu Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda isə bəzi əlavə məhdudiyyətlər davam edəcək.

Azərbaycanda koronavirusa yoluxma sayının bölgələr üzrə son statistikasına görə liderlik Bakıdadır. Son günlər paytaxta düşən pay artaraq 56.2 faiz olub. İkinci ən çox yoluxma halı 15.8 faizlə Abşeron bölgəsindədir. Yoluxma Aranda 10.2, Gəncə-Qazaxda 6.4, Lənkəranda 4.3, Quba-Xaçmazda 1.9, Dağlıq Şirvanda 1.7, Şəki-Zaqatalada 1.7, Yuxarı Qarabağda isə 1 faiz təşkil edir.

## Bəzi xəstəxanalar yenidən adi xəstəxana kimi xidmət göstərəcək

Sevindiricidir ki, görülən əks epidemik tədbirlərin səmərəliliyi nəticəsində, pandemiya xəstəxanalarında olan aktiv koronavirus xəstələrinin, eləcə də reanimasiya şöbələrində olan və süni tənəffüs cihazına qoşulan xəstələrin sayı kifayət qədər azalıb. Bu səbəbdən Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB) bəzi pandemiya xəstəxanalarının yenidən əvvəlki qaydada fəaliyyət göstərməsi ilə bağlı qərar verib. Belə ki, xüsusi rejimli xəstəxanalara ehtiyat kimi ayrılan Saatlı, Salyan, Neftçala, Qusar və Xızı rayon mərkəzi xəstəxanaları, eləcə də xüsusi rejimli xəstəxanalar kimi fəaliyyət göstərən 17 saylı Birləşmiş Şəhər Xəstəxanası və Sumqayıt Şəhər Uşaq Yoluxucu Xəstəliklər Xəstəxanası yenidən adi xəstəxanalar kimi xidmət göstərəcək.

Ölkədə 46 xəstəxana COVID xəstələri üçün fəaliyyət göstərir. Bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilib. Pandemiya yayılmağa başlayan qısa müddətdə 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni Klinika" koronavirus xəstələrinin ixtiyarına verildi. Paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Xüsusi rejimli xəstəxanalar müvafiq dərman və qoruyucu vasitələrlə təmin olundu, hər bir karantin zonalarına tibb müəssisələrinin rəhbərləri, həkim və orta tibb heyəti ezam edildi, virusla mübarizədə digər dövlətlərdəki həkim-ekspertlərlə təcrübə mübadiləsi aparıldı. Hökumətin intensiv və düzgün fəaliyyəti sayəsində səhiyyə infrastrukturu pandemiya ilə mübarizəyə istiqamətləndirildi, aidiyyəti dövlət qurumlarının fəaliyyəti bacarıqla əlaqələndirildi. Ən müasir diaqnostik alətlər, tibbi avadanlıq və ləvazimatlar, qoruyucu vasitələr vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verildi. Virusun diaqnostikası üçün dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri quruldu. Onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edildi. Pandemiya başlayanda cəmi 6 laboratoriya vardısa, hazırda bu say 45-ə çatmaqdadır. Ölkəmizdə 900 mindən çox test keçirilib. Adambaşına düşən testlərin sayına görə, Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

## Modul tipli növbəti hospital açıldı

Azərbaycan dövlətinin koronavirus pandemiyası ilə mübarizə çərçivəsində atdığı addımlar sırasında modul tipli xəstəxanaların yaradılması da olduqca mühüm əhəmiyyət kəsb edir. Dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən önləyici kompleks tədbirlər çərçivəsində bölgələri də əhatə etməklə ölkə ərazisində 10 modul tipli xəstəxana quraşdırıldı. Hazırda üçü Bakıda olmaqla, Sumqayıtda, Gəncədə və Abşeron rayonunda, Qobustan, İsmayıllı, Qəbələ və Şəkidə modul tipli xəstəxanalar fəaliyyət göstərir. Bu səhiyyə ocaqlarının istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır. Modul tipli xəstəxanaların quraşdırılması ilə ölkənin səhiyyə sisteminin əlavə 2000 çarpayı ehtiyatı yaranır. Bu da koronaviruslu xəstələrin müalicəsi istiqamətində səhiyyənin imkanlarını daha da genişləndirir.

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev videoformat şəklində keçirilən açılışda iştirak edib.

Prezident çıxışı zamanı pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisinin geniş vüsət aldığını, bu məqsədlər üçün böyük vəsait ayrıldığını, bütün imkanların səfərbər edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, əvvəlki mövcud çarpayı fondu bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparmağa imkan vermirdi. Lakin cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırıldı.

Dövlət başçısı daha yeddi modul tipli xəstəxananın tikintisinin nəzərdə tutulduğunu, amma hazırda buna ehtiyac olmadığını əlavə edib. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa oluna bilər: "...Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz bu addımı vaxtında atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər bu xəstəxanalar vaxtında tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz edilib və bu gün də bu proses davam etdirilir. COVID ilə mübarizədə səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır".

## "Qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər mütləq öz cəzasını alacaq"

COVID-19 ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət göstərir, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir. Bu və digər amillər ölkədə vəziyyəti nəzarət altında saxlamağa imkan verir. Ölkə rəhbərinin sözlərinə görə, Azərbaycanda vəziyyətə uyğun şəkildə atılan addımlar öz səmərəsini verib. Bunun nəticəsində bir çox şəhərlərdə bütün karantin məhdudiyyəti aradan qaldırılıb. Bu məhdudiyyət yalnız böyük şəhərlərdə qalıb. Daha inamla və daha qısa müddət ərzində əlavə yumşaldıcı addımların atılması isə hamımızdan asılıdır: "Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti, doğrudan da, görürük, hiss edirik və bu, real nəticələrdə öz əksini tapır, - belə olan halda hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir".

Əfsuslar olsun ki, bu gün hələ də vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar mövcuddur və qaydaların kobudcasına pozulması halları vardır. Dövlət başçısı vurğulayıb ki, belə hallar aşkarlananda cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyaya aid insanlara tətbiq olunur. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq, hamı qanun qarşısında bərabərdir: "Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar. Digər tərəfdən, qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək".

Prezident İlham Əliyev vətəndaşların sağlamlığının, rifahının dövlət üçün prioritet olduğunu bir daha qeyd edib. Görülmüş bütün işlərdə də bu vəziyyətdən az itkilərlə çıxmaq məqsədi güdülür. COVID-19-la bağlı dünya statistikasına baxdıqda ölkəmizdə əldə edilmiş nəticələrin, doğrudan da, çox təsirli, çox dəyərli olduğunu görürük: "Mən hesab edirəm ki, məhz bu tədbirlər nəticəsində biz minlərlə insanın həyatını qoruduq. Əminəm, birgə səylər nəticəsində bundan sonra da dövlətin qətiyyətli və düşünülmüş, ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez zamanda normal, adi həyata qayıdaq".

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Qubadlının işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Qubadlı rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 27-ci ildönümü ilə əlaqədar bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir: "1993-cü ilin 31 avqust tarixində Qubadlı rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Ermənistanın təcavüzü nəticəsində 238 nəfər Qubadlı sakini şəhid olub, 316 nəfər əlil, 100 nəfərdən çox insan isə itkin düşüb. İşğal nəticəsində rayonun inzibati mərkəzi və 93 kəndi tamamilə dağıdılaraq talan edilib, 40 mindən çox Qubadlı sakini məcburi köçkünə çevrilib. Qubadlının işğalı nəticəsində 445 min kvadratmetr mənzil fondu, 4 tibb ocağı, 6 uşaq bağçası, 61 ümumtəhsil məktəbi, 10 mədəniyyət evi, 24 klub, 1 tarix-diyarşünaslıq muzeyi, 60 kitabxana dağıdılıb, işğalçılar 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni isə yandırıb və talan ediblər. Aşağı Mollu və Həmzəli kəndlərinin hər birində 9, Əliquluuşağı kəndində 5, "Gavur dərəsi" deyilən ərazidə isə IV əsrə aid 1 qədim mağara, V əsrdə tikilmiş Göy qala, Muradxanlıda "Qalalı" qalası, Xocamsaxlı kəndindəki tarixi abidələrin hamısı düşmən tapdağı altında qalıb. Ermənistanın münaqişənin əvvəlində iddia etdiyi əzəli torpaqlarımız olan keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından kənarda yerləşən Qubadlı rayonu da daxil olmaqla ətraf 7 rayonu işğal etməsi, münaqişənin məhz Ermənistanın Azərbaycan ərazilərini güc yolu ilə ilhaq etmək niyyətindən qaynaqlandığını sübut edir. Son illərdə Ermənistan tərəfindən Qubadlı da daxil olmaqla, işğal altındakı Azərbaycan torpaqlarında qanunsuz məskunlaşdırma siyasətinin daha da gücləndirilməsi onu göstərir ki, Ermənistan ərazilərimizi işğal altında saxlamaq və işğalın nəticələrini möhkəmləndirmək niyyətindən əl çəkməyib və münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.

Bəyan edirik ki, münaqişənin həlli yalnız Ermənistan silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasından və etnik təmizləməyə məruz qalmış azərbaycanlıların öz doğma torpaqlarına qayıdışından sonra mümkündür. Bütün məcburi köçkünlər kimi qubadlılılar da öz doğma torpaqlarına geri dönəcəklər".

# Dərbənddə general Mustafa Nəsirovun xatirə lövhəsi açılıb

Dərbənddə general Mustafa Cəfər oğlu Nəsirovun xatirə lövhəsinin təntənəli açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, xatirə lövhəsi generalın adını daşıyan küçədə, onun yaxın qohumlarının evinin divarında quraşdırılıb.

Dərbənd Şəhər Administrasiyasının Mədəniyyət, İdman, Gənclər Siyasəti və Turizm İdarəsi tərəfindən təşkil olunmuş tədbirdə şəhər administrasiyası rəhbərinin müavini Vidadi Zeynalov, Dərbənd Rayonu İctimai Palatasının sədri Fətulla Fətullayev, generalın qardaşı oğlu Cəfər Nəsirov, "Dərbənd şəhəri Ensiklopediyası" kitabının müəllifi Hüseynbala Hüseynov və başqaları çıxış ediblər.

Xatırladaq ki, Mustafa Nəsirov (1921-2012) Azərbaycanın ilk sərhədçi generalıdır. Böyük Vətən müharibəsi veteranı, Azərbaycanın Sərhəd Qoşunlarının general-mayoru Mustafa Nəsirovun xidmətləri Ulu Öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirilib. Prezident İlham Əliyev anadan olmasının 90 illik yubileyi münasibətilə Mustafa Nəsirovu "Şöhrət" ordeni ilə təltif edib.

# Azərbaycan tankçıları "Tank biatlonu" müsabiqəsinin yarımfinal mərhələsinə yüksəliblər

"Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız yarışların növbəti günündə "Fərdi sürücülük" mərhələsində iştirak ediblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan tankçıları yer aldıqları qrupda Çin, Belarus və Serbiya tankçıları ilə yarışlarda fərdi ustalıqlarını nümayiş etdiriblər.

Tankçılarımız müsabiqənin şərtlərinə əsasən, sərrast atəşlə 3 hədəfi məhv edib və marşrut üzrə müəyyən olunmuş məsafəni qısa müddətdə keçərək yarımfinal mərhələsinə yüksəliblər.

# Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın iclası keçirilib

Yaxın vaxtlarda Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Əməyin təhlükəsizliyi, gigiyenası və istehsalat mühiti haqqında" 155 nömrəli Konvensiyasının ölkəmiz tərəfindən ratifikasiyası gözlənilir. Əmək qanunvericiliyində BƏT yanaşmalarına uyğun olaraq işçilərin və işəgötürənlərin mənafelərinə xidmət edən bir çox dəyişikliklər ediləcək.

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri, Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın sədri Sahil Babayev Komissiyanın növbəti iclasında bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Üçtərəfli Komissiyada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) təmsil olunur.

Nazir qeyd edib ki, Prezident İlham Əliyevin tapşırığı ilə sosial sahədə aparılan islahatların bir istiqaməti də əmək qanunvericiliyinin mütərəqqi beynəlxalq normalar əsasında daim təkmilləşdirilməsidir. Bu məqsədlə Əmək Məcəlləsinə dəyişikliklər edilməsi haqqında yeni qanun layihəsi hazırlanıb. Dəyişikliklər əmək bazarı iştirakçılarının əmək, sosial və iqtisadi hüquqlarının daha dolğun təminatına xidmət edir.



BƏT-in Rəhbər Orqanının üzvü olan ölkəmizin ötən dövrdə BƏT-in 58 Konvensiyasına qoşulduğunu deyən S.Babayev ratifikasiyası nəzərdə tutulan Konvensiyanın da əməyin təhlükəsizliyinin təminatına yönəldiyini qeyd edib. Yaradılacaq Əməyin Mühafizəsi Mərkəzinin də bu sahədə mühüm töhfə verəcəyi bildirilib.

İclasın gündəliyindəki məsələlərə dair çıxışlar edilib. Koronavirus pandemiyası ilə əlaqədar komissiyanın 2020-ci il üçün yenilənmiş İş planı təsdiqlənib və komissiyanın tərkibində bəzi dəyişikliklər edilib.

"Əmək Məcəlləsinə dəyişikliklər edilməsi haqqında" qanunun və "2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya"nın layihələri, əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətinin riskə əsaslanmış qaydada həyata keçirilməsi və Əməyin Mühafizəsi Mərkəzinin yaradılması ilə bağlı layihələr, "Bank olmayan kredit təşkilatları haqqında" qanuna dəyişiklik layihəsi, BƏT-in 155 nömrəli Konvensiyasının ratifikasiyası məsələləri müzakirə olunub.

Həmin məsələlərlə bağlı komissiyanın iclasında verilmiş təkliflər üzrə müzakirələrin sosial tərəfdaşların nümayəndələrinin təmsil olunduğu işçi qruplar səviyyəsində davam etdirilməsi qərara alınıb.

# Yumşalmalara sürətli keçid pandemiya ilə effektiv mübarizənin nəticəsidir

## Zəruri qabaqlayıcı tədbirlər ölkədə sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verir

*Əvvəli 1-ci səh.*

Bütün dünyada koronavirusla bağlı ciddi sınaqların gözlənildiyi həmin mövsümlərə hazırlıqlar görülür, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun addımlar atılır.

Respublikamızda da yeni tip koronavirusla mübarizə davam etdirilir. Epidemioloji vəziyyətin nəzarətdə saxlanılması, infeksiyanın yayılmasının lokallaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Mütəmadi olaraq ölkədəki sanitar-epidemioloji vəziyyət təhlil olunaraq ona uyğun qərarlar verilir.

Hazırda Azərbaycanda COVID-19 infeksiyasına qarşı aparılan mübarizə çərçivəsində həyata keçirilən sistemli tədbirlər, vətəndaşların məsuliyyəti və mövcud qaydalara əməl etməsi nəticəsində müsbət dinamika əldə edilib. Və zamanında görülən qabaqlayıcı tədbirlər nəticəsində vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Xüsusilə də sərhədlərin, tədris müəssisələrinin, vətəndaşların kütləvi toplandığı yerlərin bağlanması, yas və toy mərasimlərinin qadağan olunması yoluxmanı nəzarət altına almaqda müstəsna rol oynayıb.

Buna görədir ki, son zamanlar yoluxma sayının 100-200 civarında olduğu müşahidə olunur. Təbii ki, koronavirus sürətli yayılma xüsusiyyətinə görə olduqca təhlükəlidir və hətta bir, yaxud ikirəqəmli həddə olması belə qorxulu sayılır. Amma onu da vurğulamaq yerinə düşər ki, bəhs etdiyimiz müsbət tendensiya həyata keçirilən yumşaldılmalar ərəfəsində də davam edir və bunun özü də virusla mübarizədə əldə olunan böyük nailiyyətdir.

Məhz effektiv tədbirlərin nəticəsidir ki, avqustun 5-dən vətənimizdə mərhələli şəkildə sərtləşdirilmiş xüsusi karantin rejiminin yumşaldılmasına, bir sıra məhdudiyyətlərin aradan qaldırılmasına start verilib. SMS icazə sistemi ləğv edilib, çimərliklər açılıb. Avqustun 10-dan iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq sərt karantin rejiminin yumşaldılması istiqamətində növbəti tədbirlər paketi qüvvəyə minib. Bir sıra istehsal, ticarət və xidmət sahələrinin fəaliyyətinə icazə verilib. İri ticarət mərkəzləri və "Mall"lardan başqa, qeyri-ərzaq məhsullarının satışı ilə məşğul olan mağazalar açılıb, bəzi sahələr üzrə işə cəlb olunan işçilərin sayına tətbiq edilmiş məhdudiyyətlər aradan götürülüb. Ötən ayın 18-dən isə ictimai iaşə obyektlərində müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verilib.

Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən aparılan yumşaldılma tədbirləri çərçivəsində milli parkların qapıları ziyarətçilərin üzünə açılıb.



### On şəhər və rayon sərt karantin rejimi zonasından çıxarılıb

Sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, ölkə ərazisində tətbiq olunan xüsusi karantin rejiminin tamamilə ləğvi hələlik məqsədəuyğun deyildir.

Belə ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, COVID-19 pandemiyası ilə əlaqədar vəziyyətin hələ də qeyri-qənaətbəxş olduğu nəzərə alınaraq, Azərbaycan ərazisində tətbiq olunan xüsusi karantin rejimi 30 sentyabradək uzadılıb.

Bununla belə, virusa yoluxma dinamikasına və mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq Cəlilabad, Gəncə, Masallı, Mingəçevir, Yevlax şəhərləri və Bərdə, Goranboy, Göygöl, Xaçmaz, Salyan rayonları 31 avqustdan etibarən sərt karantin rejimi zonasından çıxarılıb.

Yoluxma hallarının yüksək olduğu Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda isə bəzi əlavə məhdudiyyətlər hələ davam edəcək.

Sərt karantin rejimi mövcud olan şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyat fəaliyyət göstərməyəcək.

### Muzeylər, sərgi zalları açıldı, fərdi tədris və repetitor xidmətlərinə icazə verildi

Nazirlər Kabinetinin qərarına əsasən, sözügedən tarixdən ölkə üzrə muzeylərin və sərgi zallarının fəaliyyəti ilə bağlı məhdudiyyətlər aradan qaldırılıb.

Eyni zamanda xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 10 nəfərədək qruplarda fərdi tədris və repetitor xidmətlərinə icazə verilib.

Qeyd edək ki, təhsil naziri Emin Əmrullayev COVID-19 pandemiyası dövründə təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı avqustun 27-də keçirilən brifinqdə diqqətə çatdırdı ki, Azərbaycanda təhsil müəssisələri sentyabrın 15-də mərhələli şəkildə açılacaq. Sentyabrın 15-dən ibtidai siniflər dərsə başlayacaq. Bağçaların da fəaliyyəti bu tarixdə bərpa olunacaq. Yuxarı sinif şagirdləri isə sentyabrın 15-də onlayn tədrisə başlayacaqlar. Zamanla bu siniflərdə təhsil alan şagirdlər üçün də ənənəvi təhsil bərpa ediləcək. Oktyabrın 1-dən etibarən 5-9-cu sinif, oktyabrın 15-dən etibarən isə 10-11-ci sinif şagirdlərinin ənənəvi təhsilinin bərpası nəzərdə tutulur.

### Qabaqcadan görülən tədbirlər məktəblərdə yoluxma tendensiyasının qarşısını ala bilər

Təbii ki, hazırda ictimaiyyət arasında ən çox müzakirəyə səbəb olan məsələlərdən biri də məktəblər açılan zaman uşaqların bir araya gəlməsi səbəbindən yoluxma sayının artacağı ilə bağlı yaranan vəziyyətdir.

Mərkəzi Neftçilər Xəstəxanasının həkim-infeksionisti Fərrux Sədirov məktəblərin açılması ilə bağlı məsələyə münasibət bildirərək məlumat verib ki, bununla əlaqədar bəzi planlaşdırmalar aparılır. Təhsil Nazirliyi bununla bağlı ciddi yanaşmalar hazırlayır. Uşaqların məktəblərdə nəzarətsiz şəkildə bir araya gəlməsi yoluxma sayını artıra bilər. Bu, ehtimal olunandır. Lakin qabaqcadan görülən tədbirlər - sosial məsafənin saxlanılması, dərs saatlarında sıxlığın və sinif otaqlarında şagirdlərin sayının azaldılması, tənəffüs vaxtının 15-20 dəqiqə deyil, 5-10 dəqiqə olması, respirator və şəxsi gigiyena qaydalarına əməl olunması, məktəb daxilində buna nəzarət sistemi kimi amillər yoluxma tendensiyasının qarşısını ala bilər: "Valideynlərə payız-qış mövsümündə respirator xəstəliklərin artdığı vaxtda da evdən çıxmadan və evə daxil olarkən heç nəyə toxunmadan övladlarının əllərini yumasını təmin etmək tövsiyə olunur. Şübhəsiz ki, maarifləndirmə tədbirlərinin aparılması burada da çox əhəmiyyətlidir. Uşaqlara məktəblərdə hər zaman nəzarət etmək mümkün olmadığı üçün onlara yoluxma yolları və ondan qorunmaq üçün qaydalara əməl olunması aşılanmalıdır. Bunlara əməl etdikdə uşaqlar özlərini qoruya bilərlər".

### İndiyə qədər Azərbaycanda COVID-19-la əlaqədar uşaq ölümü və ağırlaşması qeydə alınmayıb

Həkim qeyd edib ki, əllərin sabunla yuyulması infeksion xəstəliklərdən 50 faizə qədər qoruya bilir. Bundan əlavə, maska taxmaq və sosial məsafə saxlamaq insanları COVID-19-la yanaşı, digər respirator virus infeksiyalardan da qoruyur: "Xəstəliyə gənclər də, orta yaşlılar da, yaşlılar da yoluxa bilərlər. Uşaqların virusa yoluxmaması haqqında informasiya yanlışdır, lakin onlarda xəstəliyin gedişatı yüngül olur. İndiyə qədər Azərbaycanda COVID-19-la əlaqədar uşaq ölümü və ağırlaşması qeydə alınmayıb. Uşaqlar xəstəliyi yüngül keçirsələr də, onun daşıyıcısı ola bilirlər. Virus artıb çoxalmaq üçün orqanizmdə müəyyən hüceyrələrdən, yəni reseptorlardan istifadə edir. Uşaqların xəstəliyi yüngül formada keçirməsi onlarda həmin reseptorların inkişaf etməməsi, immun sisteminin tam formalaşmaması və virusa lazım olan bağlanma yerlərinin olmaması ilə əlaqəlidir".

Mütəxəssislərin də qeyd etdiyi kimi, pandemiyanın tələbi olan sosial məsafəni saxlamaqla, maska taxmaqla və gigiyena şərtlərinə əməl etməklə koronavirusa yoluxma təhlükəsindən qoruna bilərik. Elə bu üç sadə qaydaya əməl etmək sayəsində COVID-19-un yoluxma zəncirini qıra və karantin rejimindən birdəfəlik qurtula bilərik.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Daxili İşlər Nazirliyi vətəndaşlara müraciət edib

Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 2020-ci il sentyabrın 30-dək ölkə ərazisində tətbiq edilən xüsusi karantin rejimi dövründə bütün kütləvi tədbirlər, o cümlədən ictimai və digər yerlərdə şəxslərin 5-10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağan edilib, məscidlərin fəaliyyəti dayandırılıb.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu il Aşura mərasimi də xüsusi karantin rejimi dövrünə təsadüf etdiyindən vətəndaşlarımız məsələyə anlayışla yanaşaraq Operativ Qərargah tərəfindən müəyyən olunmuş məhdudiyyətlərə bütövlükdə əməl ediblər. Yalnız bir neçə şəhər və rayonda insanların yoluxma riskini dəfələrlə artıran toplaşmağa cəhdlər qeydə alınıb ki, görülmüş tədbirlərlə həmin pozuntuların qarşısı alınıb.

"Bununla belə, bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə müvafiq qadağaları məhz Aşura günündə dini mərasimlərin keçirilməsinə imkan verilməməsi ilə əlaqələndirməyə cəhdlər edilib. Bu cür məlumatların yanlış olduğunu xüsusi vurğulayaraq, eləcə də insanların dini etiqad azadlığına dərin hörmətimizi ifadə edərək bildiririk ki, xüsusi karantin rejimi dövründə istənilən toplantının, hətta Silahlı Qüvvələrə dəstək xarakterli kütləvi aksiyanın keçirilməsi də yolverilməzdir. Tətbiq olunan məhdudiyyətlərin yeganə məqsədi isə əhalinin sağlamlığının müdafiəsidir.

Bir daha vətəndaşlarımızı koronavirus pandemiyasının doğurduğu ciddi təhlükəni unutmamağa, bu sahədə böyük və gərgin səylər bahasına əldə olunmuş müsbət nəticələri qorumağa, o cümlədən özünütəcrid qaydalarına riayət etməyə, sosial məsafəni gözləməyə, nəfəs yollarını qoruyan vasitələrdən daim istifadə etməyə çağırırıq", - deyə Daxili İşlər Nazirliyinin müraciətində qeyd olunub.

# Azərbaycanda koronavirus infeksiyasına daha 126 yoluxma faktı qeydə alınıb, 144 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 126 yoluxma faktı qeydə alınıb, 144 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.




Hazırkı dövrədək ölkəmizdə 36 min 435 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 33 min 847 nəfər müalicə olunaraq sağalıb, 534 nəfər vəfat edib. Aktiv xəstə sayı 2054 nəfərdir.

Ötən müddət ərzində 922 min 69 test aparılıb. Dünənki test sayı isə 5042-dir.

**Milli maraqlar naminə əməkdaşlıq**

# CXP iqtidarın gündəmə gətirdiyi islahatların yanındadır

*Əvvəli 1-ci səh.*

### Ölkədə keyfiyyət və formaca yeni situasiya yaranıb

Bədrəddin Quliyevin sözlərinə görə, son parlament seçkilərindən sonra ölkə Prezidentinin Milli Məclisdəki çıxışı dövlət siyasətinin yeni mənzərəsini ortaya qoydu: "Bu gün siyasi münasibətlərin iqtidar-müxalifət dialoqu yolu ilə inkişaf etdirilməsi yeni siyasi islahatların aparıldığını təsdiq edir. Dövlət başçısının çıxışında ölkədə keyfiyyət və formaca yeni situasiyanın yaranmasına önəm verildiyi ifadə olundu. İndiki məqamda siyasi sistemlə bağlı bu qərarın verilməsi gözlənilən islahatların açarıdır. Siyasi partiyaların qeydiyyata alınmasının sadələşdirilməsi, bu sahədə durğunluğun aradan qaldırılması ölkənin milli təhlükəsizlik konsepsiyasının bir parçasıdır".

O bildirdi ki, ölkədə yeni iqtidar-müxalifət münasibətlərinin qurulması Cümhuriyyət Xalq Partiyası tərəfindən də təqdir edilir və dövlət başçısı səviyyəsində elan edilən islahatların aparılması daxili və xarici aləmdə Azərbaycanın imicinin güclənməsi baxımından irəliyə doğru atılmış strateji addımdır.

Belə bir məqamda Cümhuriyyət Xalq Partiyasının hansı təşəbbüslərlə çıxış etməsinə gəldikdə isə, partiya sədri dedi ki, Prezident Administrasiyasında yeni yaradılan Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevlə görüşdə bir sıra təkliflər irəli sürüblər: "Biz öz təkliflərimizi təqdim etməklə yanaşı, onları KİV-də və sosial şəbəkələrdə ictimai müzakirəyə çıxarmışıq. Xatırladım ki, islahatlar kadr siyasəti ilə yanaşı, sistem dəyişiklikləri ilə nəticələnməlidir. İlk addım kimi proporsional seçki sistemi qanunla tətbiq olunmalıdır. Bu, demokratiyanın cəmiyyətə verdiyi ən düzgün dəyərdir. Son dövrlərin mühüm siyasi yeniliklərindən biri də qeyd etdiyim kimi, partiyaların qeydiyyat probleminin həllidir. Bu, siyasi mədəniyyət sisteminin rəsmi şəkildə qiymətləndirilməsi deməkdir".

Bədrəddin Quliyev dedi ki, təkliflərindən biri də yerli özünüidarəetmə sisteminin dəyişməsidir: "Bələdiyyələrin hüquqlarının artırılması ilə ölkədə iqtisadi, sosial və digər problemlərin həllində yerli idarəetmə strukturlarının daha fəal olması üçün zəmin yaratmalıyıq. Böyük şəhərlərdə mer seçkisinin keçirilməsini də müdafiə edirik. Belə olduğu təqdirdə ənənəvi bürokratik problemlər təbii yolla həll olunacaq. Çünki yerli büdcəyə ictimai nəzarət güclənəcək. Bu, həm də əhalinin dövlət quruculuğunda iştirakını və fəallığını gücləndirmək deməkdir. Məhkəmələrdə islahatlar aparılmalıdır. Biz demokratiya ilə yanaşı, hərbi potensialımızı da inkişaf etdirməliyik. Biz CXP olaraq pandemiya problemi həll olunandan sonra bu istiqamətdə əhali arasında imza kampaniyasına başlayacağıq. Ölkədə köklü islahatların aparılması prosesində hamının vahid mövqe nümayiş etdirməsi olduqca vacibdir".

Cümhuriyyət Xalq Partiyasının iqtidarın siyasətinə, apardığı islahatlara münasibətdə hansı mövqedə olmasına da aydınlıq gətirən Bədrəddin Quliyevin sözlərinə görə, hər zaman bu proseslərin mərkəzində durmağa çalışıblar: "Biz iqtidarın gündəmə gətirdiyi islahatların yanındayıq. Bunu dəfələrlə verdiyimiz bəyanatlar, toplantılar və müsahibələrimizdə ifadə etmişik. Çünki indiki islahatlar ölkədaxili milli birliyə gedilən yolun hədəflərini ortaya qoyub. Ölkənin taleyüklü problemlərinin həlli istiqamətində, xüsusilə korrupsionerlərin mövqelərinin sarsıdılması baxımından bu gün aparılan islahatlar çox vacibdir. Bu, həm də "beşinci kolon"un iflası deməkdir. Həmin qüvvələr müstəqil Azərbaycan dövlətinin inkişafı üçün əngəldirlər. Aparılan islahatlar dövlətə və hakimiyyətə etimadın güclənməsinə gətirib çıxarır. Biz CXP olaraq bunu çox yüksək qiymətləndiririk. Bu islahatlar həm də dünyada baş verən yeniliklərlə ayaqlaşmaq deməkdir.Yeni baxışların və yeni sağlam qüvvələrin bu prosesdə aktivləşməsi baxımından da çox vacibdir. Cəmiyyətin bir sıra neqativ hallardan, ətalətdən və digər problemlərdən qurtulması deməkdir".



### Dialoq iqtidarlı-müxalifətli milli həmrəyliyə gedilən yoldur

CXP sədri bildirdi ki, siyasi dialoqun gündəmə gətirilməsi ideoloji baxışlara fərq qoymadan kimin dövlətin və milli maraqların yanında yer aldığını sübut etdi: "Dialoq ölkənin ümummilli problemlərinin həlli yönündə məsuliyyəti hiss etmək və mövcud şəraiti nəzərə alaraq, bu yolda iqtidarlı-müxalifətli birlik nümayiş etdirmək deməkdir. Dialoq iqtidarlı-müxalifətli milli həmrəyliyə gedilən yoldur. Unutmayaq ki, dövlət müstəqilliyimizə qovuşduğumuz andan Azərbaycanı "marginal" dövlət kimi görmək istəyən bəzi xarici qüvvələrin əli ilə daxildə bir neçə dəfə "dövlət çevrilişi" cəhdləri olub. Onlar torpaqlarımızın işğalında da birbaşa məsuliyyət daşıyırlar. Onlara qarşı daxildə iqtidarlı-müxalifətli bir araya gəlməklə vətəndaş həmrəyliyini qoruya və dövlətimizin ali maraqlarını təmin edə bilərik. Dialoqun aparılması məhz bu ali dəyərə xidmət edir. Qarabağ problemindən böyük dərdimiz yoxdur. Bu problemi hamılıqla həll etmək üçün səfərbər olmalıyıq.Tarixi şəraiti və regionda baş verən prosesləri düzgün qiymətləndirərək qələbənin təmin edilməsi üçün çalışmalıyıq. Dialoq dedikdə bu faktora önəm veririk. Unutmaq olmaz ki, hər bir dövlətin strateji maraqlarının təmin edilməsi yönündə siyasi partiyaların müstəsna əhəmiyyəti var. Dialoqlar məhz bu fakta söykənməlidir. Çünki dövlət maraqları hər şeydən üstün olmalıdır".

Bədrəddin Quliyev əlavə etdi ki, siyasi sistemin daha möhkəm təməllər üzərində qurulması və inkişaf etməsi üçün bunun hüquqi bazasını hamılıqla birlikdə yaratmalı, Qərbdən və ya hansısa ölkədən ixrac olunan düsturlara əsla yol verməməliyik: "Hər bir dövlətin özünün milli maraqları olmalıdır və siyasi, ideoloji və hüquqi baxımdan bu istiqamətdə dövlətin inkişafına töhfələrimizi verməliyik. CXP bu fikri ona görə önə çəkir ki, dövlətçilik konsepsiyasına önəm verən bütün siyasi qüvvələr bir araya gələrək memorandum imzalamalıdırlar. Hamılıqla ölkəmizdə vüsət götürən islahatlara töhfəmizi verməliyik.

Ölkəmizdə islahatlara qarşı çıxanlara gəldikdə, Bədrəddin Quliyev dedi ki, siyasi, sosial, iqtisadi və kadr islahatları onlar üçün qazılmış məzardır: "Çünki onlar heç zaman yenilikçi olmayıblar. Bizim partiyamız dövlətin və milli maraqların yanında kim durursa, onlarla bir sırada yer alır".

### Marginal qruplar cəmiyyət tərəfindən müdafiə olunmurlar

Partiya sədri özünü sağlam siyasi proseslərdən təcrid edən, marginallaşan radikal müxalif partiyalar barədə də mülahizələrini bölüşərək dedi ki, onlar bu gün müxalifət cildinə girərək dövlətin inkişafına qarşı çıxırlar: "Məhz onların səbatsızlığı ucbatından Azərbaycanın əraziləri erməni işğalçıları tərəfindən işğal olunub. Onlar cəmiyyət tərəfindən müdafiə olunmurlar. Elə buna görə də xaricdə çoxsaylı sosial şəbəkələr yaradıb dövlətimizə qarşı siyasi təxribatlar aparırlar. CXP dövlətçiliyimizin qorunması naminə hər zaman onlara qarşı sərt mövqedə olub. Digər yandan isə, həmin marginal qüvvələrin arasında vahid mövqe yoxdur. Kiçik qruplara bölünmüş bu çevrələrin hər birinin ayrıca "xarizmatik lideri" var. "Mənəmlik" iddiasının əsiri olan belələrinə dünyanın cılız və bəsit düşüncəli məxluqları kimi baxırıq".

Qeyd olundu ki, Azərbaycanda islahatlar daha geniş vüsət aldıqca müxalifət qılafına bürünmüş marginal çevrələr də getdikcə iflasa uğrayırlar: "Çünki demokratik mühit inkişaf etdikcə, dövlətin strateji maraqlarını hər şeydən üstün tutan siyasi partiyalara münbit şərait yaranır. Şəffaflıq olan yerdə isə islahatlar yüksək səviyyədə olur. Bu, demokratiyanın ilkin təməllərindən biridir".

CXP sədrinin pandemiyaya qarşı aparılan mübarizə tədbirləri barədə də fikirlərini öyrəndik. Onun sözlərinə görə, Operativ Qərargahın yaradılması, proseslərin xüsusi nəzarətə götürülməsi, modul xəstəxanaların açılması, digər xəstəxanaların rekonstruksiya edilməsi, tibbi avadanlıqların, laboratoriyaların alınması, qoruyucu maska istehsalına başlanılması çox böyük uğurlara səbəb oldu. "Azərbaycan xaricdən yardım almamaqla, daxili resursları hesabına problemlərinin həlli istiqamətində qətiyyətli iradə göstərməklə regionda ən güclü dövlət olduğunu bir daha sübut etdi. "Evdə qal" aksiyasının həyata keçirilməsi, vətəndaşlara dövlət tərəfindən kompensasiya verilməsi sosial dövlət anlayışının tərkib hissəsidir. Belə bir məqamda problemlərin olması təbii qarşılanmalıdır. Çünki vətəndaşların qlobal pandemiya bəlasının aradan qaldırılması istiqamətində adaptasiya olunması psixoloji baxımdan zaman tələb edir. Bu problemin birinci mərhələsini demək olar ki, Azərbaycan dövləti alnıaçıq səviyyədə adladı. İnanırıq ki, növbəti mərhələni də dövlətimizin güclü potensialı səviyyəsində uğurla adlayacağıq".

Korrupsiya ilə mübarizə barədə qənaətlərini bölüşən Bədrəddin Quliyev dedi ki, bütün bunlar cəmiyyətdə razılıqla qarşılanır. "Korrupsiya əməllərinə görə məmurların ifşası cəmiyyət tərəfindən yüksək qiymətləndirilir. İndi demək olar ki, durum tamamilə dəyişib. Korrupsiya və rüşvətxorluqla bağlı ifşa olunan məmurlar dövlət səviyyəsində və xalq tərəfindən çox ciddi şəkildə qınanırlar. Onlar cəmiyyətlə üz-üzə gəlmək dilemmasının çətinliklərini dərk edirlər. Korrupsioner və rüşvətxor məmurların qarşısı alınmaqla yanaşı, ölkəmizdə hərtərəfli islahatlara start verilibdir. Bunları görməzlikdən gəlmək ən azından ədalətsizlikdir", - deyə o bildirdi.

CXP sədrinin Prezident İlham Əliyevin müəllifi olduğu sosial-iqtisadi islahatlar konsepsiyası barədə fikirlərini də öyrəndik. Bədrəddin Quliyevin sözlərinə görə, son dövrlərdə, xüsusilə özəl sektorda yoxlamaların dayandırılması, vergi və gömrük islahatlarının aparılması, istehsalda stimullaşdırıcı addımların atılması inkişafa böyük dəstəkdir: "Məhz bu səbəbdən çoxlu yeni iş yerləri açılıb. Bunlarla bərabər, "Made in Azerbaijan" adı ilə yeni məhsulların dünya bazarına çıxarılması qürurvericidir. Bu, qeyri-neft sektorunun inkişafına böyük bir təkandır. Çünki istehsal olan yerdə iqtisadi inkişaf var və bu da, öz növbəsində, əhalinin sosial rifahının artması deməkdir. Milli brendimizə çevrilən qeyri-neft sektoru məhsulları dövlət büdcəsinə əlavə gəlirin daxil olması ilə müşahidə olunur".

Sonda Bədrəddin Quliyev bir daha bildirdi ki, Cümhuriyyət Xalq Partiyası iqtidarın apardığı islahatlar prosesinin içindədir: "Partiya aparılan islahatların yüksək nəticələr verməsi üçün çalışır, milli birliyin tərəfdarı kimi çıxış edir".

**Söhbəti yazdı:**
**Rəşad CƏFƏRLİ,**
**"Azərbaycan"**

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Tovuzun sərhəd kəndləri hər gün atəşə tutulsa da, sakinlər nikbindirlər

## Prezidentin sərəncamı ilə mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə dəymiş ziyan aradan qaldırılır

*Əvvəli 1-ci səh.*

Odur ki, onlar gündəlik işləri ilə məşğuldurlar.

Öyrəndik ki, rayon icra hakimiyyətinin başçısı və məsul işçiləri də sərhəd kəndlərin sakinlərini tək qoymurlar. Onlar tez-tez kəndlərə baş çəkir, mövcud problemlərin həllində kömək göstərirlər. Həmin kəndlərə getmək, sakinlərlə görüşmək, dağılan evlərdə görülən işlərlə tanış olmaq istəyimizi bildirəndə rayon icra hakimiyyətinin başçısı heç bir problemin olmadığını bildirdi.

Qeyd edək ki, digər yaşayış məntəqələri kimi, sərhəd kəndlərinə gedən yollar da tamamilə yenidən qurulub. Bələdçimiz, rayon icra hakimiyyətinin məsul işçisi Tariyel Məmmədov yolboyu bizə həm Ermənistan, həm də Azərbaycan Ordusunun mövqelərindən danışdı. Uzaqdan görünən nəhəng dağların başında dayanan məğrur Azərbaycan Ordusunun mövqelərini göstərib dedi ki, düşmən daim həmin mövqeləri ələ keçirmək və beləliklə, bu əraziləri nəzarət altında saxlamaq üçün dəfələrlə təxribatlara əl atıb. Lakin Azərbaycan Ordusu düşmənin cavabını layiqincə verib. İyulun 12-də ermənilərin növbəti təxribatının da qarşısı mətinliklə alındı.

İlk çatdığımız kənd Dondar Quşçu oldu. Mən bu kəndin sərhəddə yerləşmədiyini və nə üçün ermənilərin bu kəndi atəşə tutmasının səbəbini soruşduqda Tariyel Məmmədov dedi ki, ermənilərin mövqeləri görünən o hündür dağın arxasındadır. Hərbi səriştəsizlik səbəbindən mərmiləri hara gəldi atmışlar ki, bunun da nəticəsində onlardan biri Telarə Əliyevanın, digəri isə Roza və Biranə Abdullayeva bacılarının yaşadıqları evə düşüb. Hər iki ev tamamilə dağılıb.

Biz Telarə Əliyevanın evində olduq. Burada yeni evin tikintisi aparılırdı. Söhbət zamanı məlum oldu ki, dünyagörmüş bu ağbirçək ananın 7 övladı var. Dağılmış evdə Namiq adlı oğlu və onun ailəsi ilə birlikdə yaşayırmış. Namiqin iki azyaşlı uşağı var. Söhbət zamanı Namiq dedi ki, evi yenicə təmir etdirmişdik. Lakin orada çox yaşaya bilmədik. İyulun 12-də günorta vaxtı idi. Oturub nahar edirdik. Birdən həyətimizə mərmi düşdü. Elə bil yer-göy lərzəyə gəldi. Hərəmiz bir tərəfə sığınıb həyatımızı qoruya bildik. İndi həyətdə balaca bir daxmada məskunlaşmışıq. Sağ olsun dövlətimizin başçısı, göstərişi ilə dağılmış evin yerində yenisini tikilir.







Roza və Biranə Abdullayeva bacılarının evi isə tamamilə dağılıb. Qeyd edək ki, həm atadan, həm də anadan yetim qalan bu bacılara Dondar Quşçu kəndində böyük hörmətlə yanaşırlar. Roza Bakı Dövlət Universitetinin IV kursunda təhsil alır. Bacısı Biranə isə həmin anda işlədiyi kənd xəstəxanasında olmuşdur. Xoşbəxtlikdən hər iki bacı hadisə baş verən anda evdə olmamışlar. İndi dağılmış ikimərtəbəli evin yerində yenisinin tikintisinə başlanılmışdır. Bacılar müvəqqəti olaraq xalalarının yanında yaşayırlar.

İyul döyüşlərində rayonun Ağdam kəndinə də xeyli ziyan dəymişdir. Bizi kənddə icra nümayəndəsi Həqiqət Məmmədova qarşıladı. Kənd haqqında ətraflı məlumat verərək dedi ki, 1450 nəfər əhalisi olan Ağdam kəndinin bir nəfər sakini də iyul hadisələrində öz el-obasını tərk etmədi. Ümumiyyətlə, Dağlıq Qarabağ müharibəsi başlayandan 14 nəfər şəhid verən bu kənddə indi də insanlar mərdliklə dayanmışlar.

İcra nümayəndəsi söhbət zamanı dedi ki, ermənilər həmişə təxribat törədirlər. Demək olar ki, indi də sutkanın 24 saatını fasilələrlə kəndi iriçaplı silahlardan atəşə tuturlar. Lakin sakinlər artıq buna alışıblar. Böyükdən-kiçiyə heç kim düşmən təxribatından qorxmur.

Məlum olduğu kimi, iyul döyüşləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz rayonu istiqamətində açılmış artilleriya atəşi nəticəsində kənd sakini, 76 yaşlı Əziz Əzizov həlak olmuşdur. Mərhum Əziz Əzizovun evində də olduq. Burada çoxlu sayda inşaatçı çalışırdı. Mərhumun qızı Zərnişan Gözəlova atasının şəhid olduğu yeri göstərərək dedi:

- Ermənilərin atdıqları mərmi bax, bura düşmüşdü. Mərminin qəlpələri bütün evi dağıtmışdı. Atam isə yerdə sərili vəziyyətdə qalmışdı...

Qeyd edək ki, döyüşlərin şiddətli vaxtında ailə üzvlərinin xəbərdarlığına baxmayaraq, 4 övladı və 7 nəvəsi olan Əziz kişi yaşadığı evi tərk etməmişdi. Keçmiş döyüşçü kimi kəndində, el-obasının yanında olmağı özünə borc bilərək sevdiyi torpaqdan ayrılmamışdı.

Sonra dövlətimizə, xüsusən Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya göstərdikləri diqqət və qayğıya görə minnətdarlıq edən Zərnişan indi onun üçün dövlət vəsaiti ilə dördotaqlı ev tikildiyini söylədi.

Ümumiyyətlə, kənddə dağılmış evlərin bərpası diqqət mərkəzindədir. Görülən işlər isə kənd sakinləri tərəfindən razılıqla qarşılanır. Azərbaycanın Milli Qəhrəmanı Naiq Yusifovun atası Nəsir Yusifov, kənd ağsaqqallarından İsa Əliyev, Cümşüd Bağırov, Şəmsi Yusifov və başqaları söhbət zamanı çox nikbin danışdılar. Dedilər ki, Ağdam kəndi Tovuzun səfalı bir ərazisində yerləşir. Hər tərəfdən yaşıl dağ yamacları ilə əhatə olunmuş kənddə dövlətimizin qayğısını hər an hiss edirlər. Gözəl yol çəkilib. Kəndə marşrut avtobusu işləyir. Burada 180 yerlik məktəb, 60 yerlik uşaq bağçası fəaliyyət göstərir. Kənddə poçt və mədəniyyət evi var. Sakinlər də ki çox işgüzardırlar. Əsasən heyvandarlıq və əkinçiliklə məşğul olan əhali öz halal çörəyini alın təri ilə qazanır.

Söhbət zamanı kənd ağsaqqalları dedilər ki, iyulun 12-də günorta saatlarında ermənilər kəndi atəşə tutmağa başladılar. Bizə elə gəldi ki, bu, düşmənin həmişəki təxribatlarındandır. Atışmanın şiddətlənməsindən sonra başa düşdük ki, bu, adi günlərdəki döyüş deyil. Ancaq Azərbaycan Ordusu cavab atəşi ilə düşmənə elə bir divan tutdu ki, böyük qürur hissi duyduq. Ordumuz düşmənin səsini birdəfəlik batırdı. Doğrudur, indi də arabir güllə səsləri eşidirik. Lakin biz heç nədən qorxmuruq.

İndi kənddə düşmənin atdığı artillerya atəşi nəticəsində dağılan evlərin bərpası, yaxud yenidən tikilməsi və infrastruktur obyektlərinə dəyən ziyanın aradan qaldırılması sürətlə davam etdirilir. Hazırda rayonun atəşə məruz qalmış yaşayış məntəqələrinin, o cümlədən bilavasitə təmas xəttində yerləşən sərhəd kəndlərinin əhalisinin sosial ehtiyaclarının ödənilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Ayrı-ayrı xidmət sahələri üzrə sakinlərin ehiyacları öyrənilir və onların həlli üçün iş aparılır.

Ağdam kəndindən qayıdanda bir neçə nəfərin yol kənarında tikinti apardığını gördük. Dayanıb maraqlandıq. Kənd ağsaqqalı Sahib Sadıqov dedi ki, burada şəhid generalımız Polad Həşimovun xatirəsinə bulaq kompleksi tikirik. Yaxın zamanlarda isə onun büstünü ucaltmaq fikrindəyik. Qoy Vətən, torpaq uğrunda şəhid olan igidlərimizin adı əbədi yaşasın.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Sumqayıt Kimya Sənaye Parkında daha bir yeni rezident qeydə alınıb

Ölkəmizdə fəaliyyət göstərən sənaye parklarında yeni istehsal sahələrinin yaradılması, rəqabətqabiliyyətli, idxalı əvəz edən və ixracyönümlü istehsalın genişləndirilməsi, innovativ texnologiyaların tətbiqi, sənaye sahəsində məşğulluğun artırılması, daha çox investisiyanın cəlb olunması istiqamətində sistemli və ardıcıl işlər aparılır.




Bu işlərin davamı olaraq Sumqayıt Kimya Sənaye Parkında yeni rezident - "Novus Plastica" MMC qeydiyyata alınıb və bununla da Sənaye Parkının rezidentlərinin sayı 24-ə çatıb. Yeni rezident tərəfindən Sənaye Parkının ərazisində "Polimer materialların emalı" layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində yaradılacaq müəssisədə Yaponiya və Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə iki istiqamət üzrə - polietilen borular üçün qara karbon konsentratı və mavi konsentrat, həmçinin polimer istehsalı zamanı yaranan qeyri-standart polimerlər və polimer kompozisiya materialları istehsal olunacaq.

İnvestisiya dəyəri 11 milyon manat olan müəssisədə 100-dən çox insan daimi işlə təmin ediləcək.

İstehsal ediləcək məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə bir sıra xarici ölkələrə də ixrac olunacaq.

# Daha 155 əlilə reabilitasiya vasitələri verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Protez-Ortopedik Bərpa Mərkəzi səyyar xidmətlərini Siyəzən, Xızı, Şabran, Xaçmaz, İsmayıllı, Qəbələ və Oğuz rayonlarında davam etdirib.

Həmin 7 rayon üzrə 155 nəfər əlilliyi olan şəxsə ehtiyac duyduqları 896 reabilitasiya vasitəsi mərkəzin əməkdaşları tərəfindən yerində təqdim edilib. Bir sıra əlilliyi olan şəxslərin isə yaxın günlərdə reabilitasiya vasitələri ilə təmin edilmələri üçün müayinələri aparılıb və onlardan müvafiq ölçülər götürülüb.

Ümumilikdə bu ilin ötən dövründə Protez-Ortopedik Bərpa Mərkəzi 1000-dən artıq əlilliyi olan şəxsə səyyar formada xidmətlər göstərib. Ehtiyac duyduqları 3764 reabilitasiya vasitəsi onlara yaşadıqları rayon və şəhərlərə, bir qisminə evlərinə aparılaraq təqdim edilib.

# Azərbaycanda aqrar sığorta sahəsində müstəqil ekspertlər institutu yaradılır

Azərbaycanda aqrar sığortanın tətbiqi ilə əlaqədar bu sahədə müstəqil ekspertlər institutu yaradılır. Müstəqil ekspert - kənd təsərrüfatı sığortasında riskləri və (və ya) zərərləri qiymətləndirən, habelə sığorta hadisələrini araşdıran fiziki şəxsdir.

Ölkə qanunvericiliyinə görə, aqrar sığorta müqaviləsi bağlanarkən riskləri və hadisə baş verdikdə dəymiş zərəri müstəqil ekspertlər qiymətləndirəcəklər. Bu, ödənişli xidmətdir. Həmin xidmətlərin həyata keçirilməsi üçün müstəqil ekspertlərə müvafiq xidmət haqqı ödəniləcək.

Nazirlər Kabinetinin "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında qərarına görə, aqrar sığorta üzrə müstəqil ekspert statusu almaq istəyən şəxslər aqronomluq, bağçılıq və tərəvəzçilik və bitki mühafizəsi, baytarlıq, baytarlıq təbabəti, zootexniklik və zoomühəndislik, eləcə də balıqçılıq və su bioehtiyatları və akvakultura üzrə ali və ya orta ixtisas təhsilinə malik olmalıdırlar. Başqa sözlə, hazırda dövlət və özəl sektorda çalışan baytarlar, aqronomlar, balıqçılıq və oxşar ixtisaslara sahib olan şəxslər, eləcə də sözügedən ixtisaslar üzrə universitet və kollec məzunları müstəqil ekspert statusu ala bilərlər. Belə ixtisaslara malik olan şəxslər aqrar sığorta üzrə müstəqil ekspert statusu almaq üçün müvafiq imtahan verərək sertifikat almalı və reyestrə daxil edilməlidirlər.

Müstəqil ekspert statusu almaq istəyən şəxslər üçün Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən imtahan təşkil ediləcək. Artıq Dövlət İmtahan Mərkəzi (DİM) namizədlərin imtahanlara səmərəli hazırlaşmasını təmin etmək məqsədilə imtahanın birinci mərhələsinin proqramlarını təqdim edib.

İmtahan iki mərhələdən ibarətdir. İmtahanın birinci mərhələsi sığorta və kənd təsərrüfatı sahəsi üzrə qanunvericiliyi, ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürün) yoxlanılmasına aid sualları, o cümlədən sertifikat növlərinə uyğun olaraq müvafiq sahədə ixtisas suallarını əhatə edir. Bu mərhələdən uğurla keçən şəxslər Aqrar Sığorta Fondu tərəfindən təşkil edilən təlimlərə cəlb olunurlar. Təlimlər bitdikdən sonra imtahanın ikinci mərhələsi keçirilir. İmtahanın ikinci mərhələsi təlim proqramına dair sualları əhatə edir.

İmtahanın hər bir mərhələsi üzrə toplanması mümkün ümumi (maksimal) bal 120 baldır və imtahanın birinci mərhələsi üzrə 60, ikinci mərhələsi üzrə isə 70 faiz nəticə əldə etmiş şəxs imtahanı müvəffəqiyyətlə keçmiş hesab olunur.

Xatırladaq ki, imtahan Nazirlər Kabinetinin 2020-ci il 23 mart tarixli 106 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspertlərin imtahanının keçirilməsi Qaydası"na əsasən keçirilir. İmtahan nəticəsində sertifikatlar Dövlət İmtahan Mərkəzi tərəfindən verilir.

# Gəncədə yığılan elektrobusların Türkiyənin iri şəhərlərindən birinə satışı ilə bağlı danışıqlar aparılır



Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının sədri Xanlar Fətiyev AZƏRTAC-a bildirib ki, artıq şəhər rəhbərliyi ilə zavodun nümayəndələri arasında ilkin danışıqlar yekunlaşıb.

Xanlar Fətiyev bildirib ki, bu gün dünyada həm ekoloji, həm də yanacağa qənaət baxımından çox sərfəli olan elektrobuslardan istifadəyə üstünlük verilir. Gəncədə yığılan, 83 sərnişin tutumuna malik elektrobuslar 26 oturacaqla, kondisionerlə, həmçinin məlumat monitoru və videonəzarət sistemi ilə təchiz olunub. 60 kilometr/saat sürətlə hərəkət edə biləcək elektrobusun akkumulyatoru şəhər rejimində RGZP/G/300KW 600V-EN doldurma stansiyası tərəfindən 6 dəqiqə ərzində tam doldurulur. Bu avtobuslar ekoloji baxımdan da çox sərfəli və əhəmiyyətlidir.

Ötən ildən Gəncədə müasir dizayna malik "E-321" markalı elektrobuslarının yığımına başlandığını deyən Xanlar Fətiyev qeyd edib ki, istər Bakı və Abşeronda, istərsə də Gəncə və Sumqayıtda, o cümlədən digər şəhər və rayonlarda elektrobusların səmərəli fəaliyyəti üçün lazımi şərait var: "Bu gün ölkəmizin bütün şəhər və rayonları dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində gündən-günə inkişaf edir, gözəlləşir, müasirləşir. Təbii ki, hər gün yaşıllaşan və ekoloji baxımdan təmiz şəhərə çevirməyə çalışdığımız yaşayış yerlərində ekoloji baxımdan çox vacib olan elektrobusların xətlər üzrə istifadəyə verilməsi çox məqsədəuyğun olardı. Təsadüfi deyil ki, bu yaxınlarda dövlət başçısının göstərişi ilə ölkəmizdə birinci "Yaşıl şəhər" layihəsi Gəncə şəhərində həyata keçiriləcək. Ümid edirik ki, Gəncə Avtomobil Zavodunun yığdığı elektrobuslar bu layihənin bir hissəsi olacaq".

# 95 mindən çox şəxsə e-qaydada pensiya, müavinət və təqaüd təyin olunub

Məlum olduğu kimi, 2019-cu ilin əvvəlindən Azərbaycanda pensiyalar, ötən ilin son rübündən isə müavinət və təqaüdlər üzrə elektron təyinat sistemləri işə salınıb.

Həmin e-təyinat sistemləri vasitəsilə ötən dövrdə 95 mindən çox şəxsə e-qaydada pensiya, müavinət və təqaüd təyin edilib. Onlardan 65 min e-təyinat bu ilin ötən dövründə aparılıb.

Vətəndaşların pensiya, müavinət və təqaüd hüquqları yaranan zaman həmin şəxslər hansısa quruma müraciət etmələrinə və sənəd təqdim olunmasına ehtiyac qalmadan onlara müvafiq sosial təminat növləri üzrə e-təyinatlar həyata keçirilir.

# "Şəhərdən kəndə" layihəsi çərçivəsində fermerlərlə görüşlər keçirilir

"Şəhərdən kəndə" layihəsinə qoşulmuş fermerlərlə görüşlərin keçirilməsinə başlanılıb. Görüşlər yerli fermerlərin aqroturizmin əsas prinsipləri və beynəlxalq təcrübələri ilə yaxından tanış edilməsi, bacarıqlarının artırılması məqsədilə təşkil olunur.



Bu günədək İsmayıllı, Şəki, Zaqatala, Qəbələ və Şamaxı rayonlarında görüşlər keçirilib. Görüşlərdə "Aqroturizmdə qonaqpərvərlik", "Aqroturizmdə qidalanmanın təşkili", "Aqroturizmdə təmizlik işinin təşkili" mövzuları müzakirə edilib.

Görüşlərin təşkili zamanı dünyada və ölkəmizdə mövcud olan koronavirus pandemiyasının və karantin rejiminin tələblərinə ciddi şəkildə əməl olunur. Görüşlər zamanı bütün iştirakçılar tibbi qoruyucu vasitələrlə (əlcək, maska, tibbi spirt) təmin edilirlər. Qoruyucu vasitələrin istifadəsinə və sosial məsafənin qorunmasına ciddi şəkildə nəzarət olunur.

Qeyd edək ki, "Şəhərdən kəndə" layihəsi Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən "Paşa Holdinq" və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin dəstəyi ilə həyata keçirilir.

Layihənin məqsədi ölkəmizdə aqroturizmin inkişaf etdirilməsi, regionlarda yaşayan əhalinin məşğulluğunun artırılması, yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı, eləcə də şəhər sakinləri və xarici turistlər üçün fərqli turizm imkanlarının yaradılmasıdır.

Layihə çərçivəsində bu günə qədər yerli və əcnəbi mütəxəssislər tərəfindən həyata keçirilən təlimlərdə 71 təsərrüfat sahibi iştirak edib. Ümumilikdə isə layihəyə qoşulmaq üçün 200-ə yaxın aqrar sahibkar qeydiyyatdan keçib. Baxış keçirilən 118 fermer təsərrüfatından 76-sı layihə üçün uyğun hesab edilib. Layihədə iştirak haqqı qazanan təsərrüfatlarda yenidənqurma işləri aparılır, onlar müəyyən texniki və avadanlıq dəstəyi əldə edirlər. Layihənin icrasına başlanılan gündən etibarən müxtəlif regionlarda olan fermer təsərrüfatlarına 40-dan artıq aqrotur təşkil olunub. Bu turlara ümumilikdə 800-dən çox turist qoşulub ki, onların 150-ə yaxını əcnəbi turistlərdir.

Turistlərə göstərilən xidmətin keyfiyyətinin artırılması və müraciətlərinin asanlaşdırılması məqsədilə cari ay ərzində layihənin **www.tovillage.az** portalının beta-versiyası istifadəyə verilib. Ölkəmizdə karantin rejimi ləğv edildikdən sonra portal vasitəsilə Şamaxı, İsmayıllı, Şəki, Zaqatala, Lənkəran və Quba rayonlarına təşkil edilən turlara qoşulmaq və fərdi turlar sifariş etmək mümkün olacaq. Sentyabrın 1-də Quba, sentyabrın 2-də Qusar, sentyabrın 4-də Lənkəranda fermerlərlə görüşlər keçiriləcək.

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
### *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyi potensial malgöndərənləri (podratçıları) təhsil müəssisələri üçün poliqrafik məhsulların istehsalı üzrə dövlət satınalmalarının vahid internet Portalı **(www.etender.gov.az)** vasitəsilə keçirilən aşağıdakı açıq tenderlərdə iştirak etməyə dəvət edir:

**I 2020-2021-ci tədris ilinə ikinci xarici dil fənni üzrə dərslik və müəllim üçün metodik vəsaitlərin (4 adda 162765 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

**II 2020-2021-ci tədris ilinə "Rəqəmsal bacarıqlar" layihəsi üçün iş dəftərlərinin (19 adda 164900 nüsxə) istehsalı ilə bağlı poliqrafiya işləri**

I tender üzrə poliqrafiya işləri Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.8-ci maddəsinə əsasən, ƏDV-dən azaddır.

Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər. Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərən (podratçı) **23 sentyabr 2020-ci il saat 17:00-dək** vahid internet Portalı vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidir:

1. Tenderdə iştirak etmək üçün ərizə (tenderin adı göstərilməklə) və hər bir tender üzrə **500 (beş yüz) manat** məbləğində heç bir halda geri qaytarılmayan iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi. İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:

**Bakı şəhəri, AZ1008, Xətai prospekti, 49**
**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**VÖEN: 1500046011**
**DXA, VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**SWIFT: - CTREAZ22**
**Hesab №: AZ30CTRE00000000000002168501**
**Fond 7**
**Büdcə gəlirlərinin təsnifatı 142330 sair daxilolmalar.**

2. Malgöndərənin (podratçının) tam adı və rekvizitləri, qeydiyyatdan keçdiyi ölkə və hüquqi statusunu təsdiq edən sənədlər;

3. Malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;

4. Malgöndərənin (podratçının) ixtisas uyğunluğu göstəriciləri ilə bağlı aşağıdakı sənədləri:

- I tender üzrə malgöndərənin (podratçının) son üç təqvim ilinin hər hansı birində dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin sifariş əsasında istehsalı sahəsində azı **2000000 (iki milyon)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **200000 (iki yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsillərinin surətləri;

- II tender üzrə malgöndərənin (podratçının) son üç təqvim ilinin hər hansı birində dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodik vasitələrin sifariş əsasında istehsalı sahəsində azı **500000 (beş yüz min)** manat məbləğində icra edilmiş müqavilələrinin, o cümlədən Azərbaycan Respublikasında azı **50000 (əlli min)** manat məbləğində icra edilmiş müqavilələrinin əsillərinin surətləri.

5. Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış.

6. Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış.

7. Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumat.

8. Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat.

9. Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.

İddiaçı iştirak etdiyi hər bir tender üzrə tender təklifini və təklifin dəyərinin 1 (bir) faizi həcmində olan bank təminatını "Dövlət satınalmaları haqqında" qanunun və əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq **01 oktyabr 2020-ci il saat 17:00-dək** vahid internet Portalı vasitəsilə təqdim etməlidir. Tender təklifi açıldığı gündən sonra 30 (otuz) bank günü qüvvədə qalmalıdır. Tender təklifinin təminatı təklifin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır. İddiaçılar hər bir tender üzrə yalnız bir təklif verə bilər. İddiaçıların tender təklifi, həmçinin tenderlə əlaqədar bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib edilməlidir.

Tender təklifləri **02 oktyabr 2020-ci il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə vahid internet Portalı vasitəsilə tanış ola bilərlər.Hər bir tender üzrə azı üç təklif təqdim olunduqda tender baş tutmuş hesab edilir. Üçdən az təklif daxil olan tender baş tutmamış elan edilir, həmin tenderin davamından imtina edilir.

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçirilir. Tenderdə iştirak, tender təkliflərinin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır. Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi əsas şərtlər toplusunda öz əksini tapır. İddiaçı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu, əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər.Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən tenderin əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların (işlər və xidmətlərin) təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

İstehsal edilmiş məhsullar müqavilə qüvvəyə mindiyi tarixdən 1 (bir) ay ərzində Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin Salyan şosesi, 14 ünvanında yerləşən anbarına təhvil verilməlidir.

Əlavə məlumat üçün tender üzrə əlaqələndirici Aynurə Novruz qızı Həsənovaya müraciət etmək olar. Əlaqə məlumatları:

**Ünvan: Bakı şəhəri, Xətai prospekti, 49**
**Telefon: 599-11-55 (daxili 5126)**
**e-mail: aynura.hasanova@edu.gov.az**

***Tender komissiyası***

# "AzerGold" QSC "Daşkəsən" dəmir filizi yatağında geoloji kəşfiyyat proqramının icrasına başlayır

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycan Respublikası Prezidentinin 6 avqust 2020-ci il tarixli Sərəncamına uyğun olaraq "Daşkəsən" dəmir filizi yatağının yenidən istismara verilməsi üçün ilkin qiymətləndirmə sənədinin hazırlanması işləri çərçivəsində geofiziki tədqiqatlar və geoloji kəşfiyyat işlərinin icrasına başlanıb.



"AzerGold" QSC tərəfindən yatağın qiymətləndirilməsi üzrə artıq geoloji kəşfiyyat proqramı tərtib edilib. Hazırda bütün tarixi geoloji məlumatlar toplanaraq rəqəmsallaşdırılır, xüsusi proqram təminatları vasitəsi ilə yatağın ilkin 3 ölçülü geoloji modeli hazırlanır. Proqrama əsasən, ilkin olaraq ehtiyatlar üzrə resursların təsdiq edilməsi istiqamətində 4 sahəni əhatə edən 32 ədəd buruq quyusunun qazılması nəzərdə tutulub. İlkin tədqiqat layihəsi çərçivəsində ümumi olaraq 21 min metr dərinlikdə buruq qazma işlərinin icrası planlaşdırılır. 6500 metr həcmində qazma işlərinin isə cari ildə yekunlaşdırılması hədəflənir. Bu işlərin yekununda ilkin resurslara dair məlumatlar bazası formalaşacaq, eləcə də ehtiyatların artırılması, dəqiqləşdirilməsi və tam təsdiqi üçün nəticələr təhlil edilərək növbəti kəşfiyyat proqramları hazırlanacaq.

Bütün tədqiqat işləri müasir yanaşmalara və beynəlxalq standartların tələblərinə uyğun şəkildə təcrübəli və peşəkar heyət tərəfindən icra ediləcək. Geoloji kəşfiyyat işlərinin yekunu olaraq yatağın geoloji modelləri tərtib edilərək mövcud resurs və ehtiyatları beynəlxalq JORC standartlarına uyğun yenidən hesablanacaq, habelə hazırda azad bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq iqtisadi səmərəli hesab edilən resurslar yenidən qiymətləndiriləcək.

Qeyd edək ki, ilkin qiymətləndirmə sənədinin hazırlanması istiqamətində aparılan tədqiqatlar mədənçilik layihələrinin icrasında zəruri addımlardan hesab olunur. Belə ki, əldə ediləcək tədqiqat nəticələri mədənin ilkin resursları və hasil edilməsi gözlənilən ehtiyatları əsasında layihə üzrə perspektivləri və maliyyə proqnozlarını müəyyən edəcək. Bu mərhələ üzrə uğurlu göstəricilər növbəti, daha təfərrüatlı araşdırma və tədqiqat mərhələsinə keçməyə və sosial-iqtisadi göstəricilərin dəqiqləşdirilməsinə xidmət edəcək.

Məlumat üçün bildirək ki, proqram çərçivəsində kəşfiyyat işlərinin 2021-ci ilin birinci yarısında, araşdırma və ilkin qiymətləndirmə üzrə hesabatın həmin ilin ikinci yarısında yekunlaşdırılması nəzərdə tutulub. Sözügedən layihə ilə əlaqədar ilkin qiymətləndirmə sənədi hazırlandıqdan sonra dövlətə təqdim ediləcək.

Qeyd edək ki, dövlət başçısı tərəfindən "AzerGold" QSC-yə tədqiqat işlərinin qısa müddətdə nüfuzlu yerli və xarici məsləhətçilər cəlb edilməklə beynəlxalq standartlara uyğun aparılması tapşırılmış və cari ildə işlərin icrası üçün ilkin olaraq 3 milyon manat vəsait ayrılmışdır.

Xatırladaq ki, "Daşkəsən" dəmir filizi yatağı 1954-cü ildən 1994-cü ilədək fasiləsiz istismar edilib. 350 milyon ton filiz həcmində hesablanan yataq ehtiyatlarının 92 milyon tonu məhz bu illər ərzində hasil edilib. Yatağın yenidən istismarı yerləşdiyi bölgənin sosial-iqtisadi inkişafına müsbət təsir etməklə yanaşı, dağ-mədən sənayesinin, eləcə də metallurgiyanın ölkənin qeyri-neft sektorunda mövqeyinin güclənməsinə səbəb olacaq. Yataqda hasilatın bərpası bir çox yan sahələrin tərəqqisinə, regionlarda iş təminatının yaxşılaşdırılmasına, yerli şirkətlərin fəaliyyəti üçün yeni və daha geniş imkanların yaranmasına da öz əhəmiyyətli töhfəsini verəcək.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu Publik Hüquqi Şəxsi
### *açıq tenderə dəvət edir*

Fondun Aparatının və struktur bölmələrinin istifadəsi üçün avtomobillərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 250 (iki yüz əlli) manat**

**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(notarial qaydada təsdiq olunmuş);***
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin* ***1 faizi*** *həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış* ***(28.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışları qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(28.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);***
- *bənzər işlərdə təcrübəsi barədə müqavilələr və görülmüş işlər barədə təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **21.09.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29.09.2020-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.09.2020-ci il saat 14:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Şimali Makedoniyada yeni hökumət quruldu

Şimali Makedoniya parlamenti Zoran Zayevin rəhbərlik etdiyi yeni koalisiya hökumətinə etimad göstərib.

Ölkədə növbədənkənar parlament seçkiləri iyulun 15-də keçirilib. Bundan sonra Şimali Makedoniyanın Sosial-Demokrat İttifaqının baş katibi Zoran Zayevin rəhbərliyilə formalaşan hökuməti 120 deputatdan 62-si dəstəkləyib. 51 millət vəkili səsvermədə etiraz edib, 7 deputat prosesdə iştirak etməyib.

Z.Zayev parlamentdə çıxış edərək əhalinin rifahının yüksəldilməsinə nail olacağına, ölkənin inkişaf templərini sürətləndirəcəyinə söz verib.

# Beynəlxalq aləm

## Yaponiyada yeni Baş nazir seçkisi təyin edildi

Hökumət başçısı Sindzo Abenin erkən istefasından sonra Yaponiyanın yeni Baş naziri sentyabrın ortalarında seçiləcək. Bu barədə "Kyodo" Agentliyi xəbər verir.

Nazirlər Kabinetinə sentyabrın 14-də seçiləcək hakim Liberal-Demokrat Partiyasının yeni sədri rəhbərlik edəcək.

Sentyabrın 17-də parlament yeni Baş nazirin namizədliyinin müzakirəsi və təsdiqi üçün iclasa toplaşacaq.

Bu vəzifəyə üç namizəd iddia edir: sabiq Baş nazir Fumio Kisida, Esihide Suga hökumətinin baş katibi Esihide Suqa, habelə Müdafiə Nazirliyinin və Kənd Təsərrüfatı Nazirliyinin keçmiş rəhbəri Sigeru İsiba.

Xatırladaq ki, ötən ayın 28-də Yaponiyanın Baş naziri Sindzo Abe xəstəliklə bağlı vəzifəsindən istefa verib.

## İranda zəlzələ baş verib

Dünən İranın cənubunda yerləşən Fars vilayətində Rixter cədvəli ilə 4,8 bal gücündə zəlzələ baş verib. Bu barədə "Tasnim" Agentliyi xəbər verir. Məlumata görə, yeraltı təkanlar yerli vaxtla saat 08:06-da Alamarvdəşt şəhərində qeydə alınıb.

Zəlzələnin episentri Mohr şəhərindən 13 kilometr məsafədə, ocağı isə 9 kilometr dərinlikdə olub.

Tələfat və dağıntı barədə məlumat verilmir.

# Ermənistanda orduya inam qalmayıb

## İşğalçı ölkənin silahlı qüvvələri işgəncə, ölüm, rüşvət və korrupsiya mənbəyinə çevrilib

Bu gün əhalisinin təbii artımı aşağı səviyyədə olan Ermənistanda ordu sıralarında xidmət etmək üçün ciddi çağırışçı problemi yaşanması heç kimə sirr deyil. Son 30 ildə 2 milyona yaxın insanın Ermənistanı tərk etməsi bu sahədə vəziyyəti daha da pisləşdirib. Hazırda ordunun tələb olunan sayda şəxsi heyətlə komplektləşdirilməsində ciddi problem yaşayan Ermənistan rəhbərliyi vəziyyətdən çıxış yolu kimi xaricdə yaşayan erməniləri hərbi qulluğa cəlb etmək, könüllü dəstələr yaratmaq istəyir.

Bu səbəbdən də Ermənistanda "xalq ordusu" adlı bir formatın reallaşdırılmasına dair bir niyyət ortaya atılıb. Artıq ermənilər qanunvericilik bazasını buna uyğunlaşdırırlar. Belə ki, işğalçı ölkədə "Müdafiə haqqında" qanuna dəyişikliklər ictimai müzakirəyə çıxarılıb. Dəyişikliklərə əsasən ölkədə hərbi könüllü dəstələrin yaradılması nəzərdə tutulur. Qeyd edilir ki, könüllü xalq qoşunları yaratmaq ehtiyacı qarşı tərəfə layiqli cavab vermək səbəbindən qaynaqlanır. "Xalq ordusu" yaradılması layihəsi ictimaiyyətin müzakirəsinə təqdim edilib.

Bu onu göstərir ki, faktiki olaraq işğalçı ölkədə müdafiəni təşkil edəcək insani resurslar, orduda nizam-intizam yoxdur. Ermənistanın əl atdığı sonuncu təxribatlar zamanı bir daha aydın oldu ki, bu ölkənin ordusunun döyüş qabiliyyəti yoxdur. Ona görə də yeni qanunda könüllülərin orduya cəlb olunması məsələsi aktuallaşdırılır və düşünülür ki, bu şəkildə işğalçı Ermənistanın ordusunu gücləndirmək olar. Lakin bütün bunların nəticə verəcəyinə heç Ermənistan rəhbərliyi özü də inanmır.

Ermənistanda sayı sürətlə azalmaqda olan gənclər orduda xidmətdən yayınmaq üçün hər vasitəyə əl atırlar. Bunun ümdə səbəblərindən biri də ordunun işgəncə, ölüm, rüşvət, korrupsiya, özbaşınalıq mənbəyinə çevrilməsidir. Müasir Ermənistan ordusunu xarakterizə edən cəhətlər isə daha dəhşətlidir. Mənəvi-psixoloji durumu gündən-günə daha da ağırlaşan orduda fərarilik halları davamlı olaraq artır. Xəstəlik və səfalətin durmadan genişləndiyi bir vaxtda hərbi qulluqçuları müalicə etmək üçün nə maddi vəsait, nə də yer çatışır. Zabit və gizirlər əvvəlki kimi şəxsi heyətin sağlamlığına biganə yanaşır. Hərbi qulluqçulara aşağı kalorili və zərərli qida məhsulları verilməsi davam edir.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, Ermənistan rəhbərliyi bolşeviklərə xas formada silahlı birləşmələr yaratmaq istəyir ki, bu birləşmələrdən öz çirkin məqsədləri üçün, o cümlədən ölkədaxili məsələlərdə istifadə etsin: "Ermənistan müxtəlif ölkələrdən olan muzdluları ön xətdə yerləşdirir, onlar öləndə isə bu faktları gizlədirlər. Belə də təqdim edirlər ki, guya, Ermənistan silahlı bölmələrində itki yoxdur. Çünki həmin şəxslər Ermənistan silahlı qüvvələrində qeydiyyatda deyillər. Ancaq hər kəs bunu yaxşı bilir. Elə Ermənistanın ictimai-siyasi dairələrinin də, mediasının da bu suallarla ölkə rəhbərliyinə müraciət etmələri yaxşı olardı. Tovuz hadisələrində də biz bir daha şahidi olduq ki, Ermənistan silahlı qüvvələrinin sərhəd boyunca törətdiyi hərbi avantüra və Azərbaycan Silahlı Qüvvələrinin rəşadətli cavabları çərçivəsində onlar o xətti şəxsi heyətlə komplektləşdirə bilmirdilər. Ona görə də Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsindən şəxsi heyəti, həmçinin Yaxın Şərq ölkələrindən olan muzdlu insanları ön xətdə yerləşdirməyə çalışırdılar".

Belə görünür ki, Paşinyanın dönəmində orduda vəziyyət daha da pisləşib. Ermənistan ordusunun döyüş və qeyri-döyüş şəraitində verdiyi itkilərin böyük əksəriyyəti gərginliyin artdığı və "inqilab"dan sonrakı dövrə təsadüf edir. Ordudakı yüksəkvəzifəli zabitlərin özbaşınalıqları, rüşvətxorluğu, şəxsi heyəti kiçik komandirlərin (çavuş heyəti) idarə etməsi, onların nizamnamədənkənar və nalayiq davranışları əsas etibarilə müddətli xidmət edən əsgərlər arasında fərariliklə yanaşı, intihar hallarının sayının da sürətlə artmasına səbəb olur. Aparılan araşdırmalar hələ də Ermənistan ordusunun kütləvi şəkildə homoseksualizm bəlasından əziyyət çəkdiyini göstərir. Zabit və gizirlər tərəfindən hərbi qulluqçuların zorlanması və onlara təcavüz edilməsi, döyülməsi, zabit və gizirlərin hərbi qulluqçuların valideynləri ilə cinsi əlaqəyə girməsi və zorlama faktının şəxsi heyət tərəfindən aşkarlanması halları da ötən illərlə müqayisədə əhəmiyyətli dərəcədə çoxalıb.

Komandir heyəti tərəfindən əsgər valideynlərinin pul gətirməyə vadar edilməsi, hərbi hissələrdən hərbi qulluqçuların qeyri-qanuni yolla müəyyən olunmuş pul müqabilində ay ərzində hərbi hissədən kənara buraxma halları, hərbi qulluqçular tərəfindən mülki əhaliyə qarşı bir çox cinayət, o cümlədən mülki şəxslərin əmlakının oğurlanması, əhaliyə qarşı zor tətbiq edilməsi, zorlama, təcavüz və digər belə hadisələrin törədilməsi ilə bağlı faktların sayı artmaqdadır.

Bundan başqa, orduda şəxsi heyət arasında narkotik maddə qəbuletmə halları da sürətlə yayılmaqdadır və belə maddələrin hərbi hissələrə gətirilməsi, şəxsi heyətə satılması planlı şəkildə zabit-gizirlərin himayəsi altında çavuş heyəti tərəfindən həyata keçirilir. Məvaciblərin az olması və vaxtında verilməməsi səbəbindən ordunun əmlakı yüksəkrütbəli hərbçilər tərəfindən talan edilərək satılır.

Ermənistan ordusunun üzləşdiyi problemlərdən biri də qarabağlı-ermənistanlı qarşıdurmasıdır. "İravunk" qəzeti yazır ki, hazırda Qarabağ erməniləri ilə Ermənistandan olan ermənilər bir-birilərinə düşmən kimi baxırlar. Vəziyyət o yerə gəlib çatıb ki, hətta Ermənistan ordusunun zabitləri də Qarabağda hərbi xidmətə gəlməkdən imtina edirlər. Bu səbəbdən də cəbhə zonasında çox vaxt postlara qoymağa əsgər tapmırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 11 avqust 2020-ci il tarixli sayında Daxili İşlər Nazirliyinin Tibb İdarəsi tərəfindən Xüsusi dərman preparatının satın alınması ilə əlaqədar dərc olunmuş elanda malgöndərənlərdən tələb olunan digər sənədlərin qəbulu vaxtı 31.08.2020-ci il kimi oxunmalıdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin nəqliyyat vasitələrinin cari təmir xərclərinin kotirovka üsulu ilə satın alınması üzrə 31 avqust 2020-ci il tarixli yekun protokoluna əsasən, "Şərqmotors" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 31 avqust 2020-ci il tarixdə müvafiq müqavilə imzalanmışdır.

***Tender komissiyası***

# Terror-təxribat təlimləri almış F.Vəliyev tutularaq ölkəyə gətirilib

Azərbaycan Respublikasının milli təhlükəsizlik maraqlarına yönələn təhdidlərin, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkar edilməsi və qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən kompleks tədbirlər davam etdirilir.

Xarici xüsusi xidmət orqanlarının nəzarəti altında Azərbaycan Respublikası vətəndaşlarının seçilərək onlara ölkə hüdudlarından kənarda radikal-ekstremist dini ideyaların aşılanması yolu ilə hərbi təlimlərin keçirilməsi, şəxsiyyətləri gizlədilərək müxtəlif adlarla digər dövlətlərin ərazisindəki hərbi əməliyyatlara cəlb olunmaları barədə toplanmış materiallar əsasında Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə hazırda istintaq-əməliyyat tədbirləri aparılır.

AZƏRTAC xəbər verir ki, araşdırmalar nəticəsində Azərbaycan Respublikasının vətəndaşı Vəliyev Faliq Qalib oğlunun ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət orqanları tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə terrorçuluq cinayət əməllərinin törədilməsi üsulları, odlu silahlardan, partlayıcı maddələrdən və qurğulardan, eləcə də digər ümumi təhlükəli üsullardan və texniki vasitələrdən istifadə ilə əlaqədar hazırlıq keçməsinə, xarici xüsusi xidmət orqanları tərəfindən kəşfiyyat-təxribat xarakterli təlimlərə cəlb edilməsinə, fərdi ləqəb altında ölkə hüdudlarından kənarda ağır və xüsusilə ağır cinayətlər törətmək məqsədilə yaradılmış qanunsuz silahlı birləşmənin fəaliyyətində iştirak etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faliq Vəliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1, 218.2 (cinayətkar birlikdə (təşkilatda) iştirak etmə), 12.3, 214-3.1-ci (terrorçuluq məqsədi ilə Azərbaycan Respublikasından kənarda təlim keçmə) və 12.1, 279.1-ci (Azərbaycan Respublikasından kənarda qanunvericilikdə nəzərdə tutulmayan silahlı birləşmələrin fəaliyyətində iştirak etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmuş, barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilərək beynəlxalq axtarış elan edilmişdir.

Faliq Vəliyevin Rusiya Federasiyasının ərazisinə keçdikdən sonra gizləndiyi yer müəyyən edilmiş və o, beynəlxalq axtarışa dair qarşılıqlı hüquqi yardım proseduru çərçivəsində saxlanılaraq 2020-ci il avqustun 27-də Azərbaycan Respublikasına ekstradisiya olunmuşdur.

Hazırda cinayət işi üzrə araşdırma davam edir.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## Məişət avadanlıqlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 11 sentyabr 2020-ci il saat 18:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
## Müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 11 sentyabr 2020-ci il saat 18:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

*Tender komissiyası*

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası
## *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir.
LOT-1: Sair torpaq, tikili və avadanlıqlar
LOT-2: Digər maşın və avadanlıqlar.

Tenderdə iştirak etmək üçün iddiaçılar hər bir LOT üzrə 500 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Xaqani küçəsi, 57 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Nəsrullayeva Rübabə Sultəli qızı. Əlaqə telefonu: 493-51-24.

İddiaçılar iştirak haqqını aşağıdaki hesaba köçürməlidirlər:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**KODU: 210005**
**M/HESAB: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Büdcə səviyyə kodu - 7**
**Büdcə təsnifatın kodu - 142314**
**AXUNDOV ADINA MİLLİ KİTABXANA**
**VÖEN: 1700241041**
**HESAB: AZ27CTRE00000000000005468301**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, aşağı qiymət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında icrası, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *iddiaçının məcburi dövlət sosial sığorta ayırmaları ilə bağlı arayış;*
- *iddiaçının maddi-texniki bazasının vergi orqanının uçot-məlumat bazasında əks etdirilməsi ilə bağlı arayış, yaxud tender prosedurunda iştirak etmək üçün vergi orqanından arayış:*
- *tender təklifinin təminatı (zərflərin açıldığı gündən 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifı qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan ilkin sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **25.09.2020-ci il saat 16:00-dək** təqdim etməlidirlər.

İddiaçılar tərtib olunmuş tender təklifi və bank zəmanətini Portal vasitəsilə **05.10.2020-ci il saat 16:00-a** qədər təqdim etməlidirlər.

Tender **06.10.2020-ci il saat 12:30-da** Portal vasitəsilə açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
## *açıq tender elan edir*

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 1752 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 02 iyul tarixli 2138 nömrəli Sərəncamının icrası məqsədilə "Pirşağı Tullantı Sutəmizləyici Qurğusunun gətirici kanalizasiya kollektorlarının tikintisi. **(Pirşağı-Kürdəxanı-Zabrat kollektoru)"** işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentindən (Əlaqələndirici şəxs: Tağıyev İlqar Rauf oğlu, telefon: + 99 412 431-47-67/87 - daxili: 1033, E-mail: **i.tagiyev@azersu.az** və Novruzov İntizam Cəmil oğlu, telefon: + 99 412 431 47 67/87 - daxili 3019, E-mail: **intizam.novruzov@azersu.az** ) ala bilərlər.

**Tenderdə iştirak haqqı: 500 (beş yüz) AZN**

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti**
**VÖEN: 9900001751**
**Bank: "Kapitalbank" ASC-nin 1 saylı Nəsimi filialı**
**Kodu: 200112**
**VÖEN: 9900003611**
**Yerli valyutada hesab nömrəsi: AZ65AIIB33070019441100216111**
**Xarici valyutada hesab nömrəsi: AZ55AIIB33170018401100216111**
**M/h: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı ilkin uyğunluq sənədlərini təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra 30 bank günü ərzində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti;*
- *iddiaçının son 3 ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (hər il üçün ən azı 10 milyon manatlıq dövriyyə tələb olunur);*
- *iddiaçının tam adı, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi rekvizitləri;*
- *son üç ili əhatə edən audit hesabatı;*
- *iddiaçının işçi heyəti, avadanlığı və texnikası barədə məlumat;*
- *Azərbaycan Respublikası dövlət standartlarına uyğun olaraq İ və İİ məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi üzrə verilmiş xüsusi razılıq (lisenziya) və onun əsasında həyata keçirilməsinə icazə verilən işlərin siyahısı.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **05 oktyabr 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **14 oktyabr 2020-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin Təchizat və satınalmaların idarə olunması departamentinə təqdim etməlidirlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İştirakçıların təklifləri Bakı şəhəri, Moskva prospekti, 67 ünvanında yerləşən "Azərsu" Açıq Səhmdar Cəmiyyətində **15 oktyabr 2020-ci il saat 16:00-da** açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər.

*Tender komissiyası*

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (070) 244-17-34
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 564-63-45, (050) 214-04-05
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

*4 aylıq*
41,60 (qırx bir manat altmış qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 01.09.2020-ci il saat 23:00-dan etibarən 02.09.2020-ci il səhər saatlarınadək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## B İ L D İ R İ Ş

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin istismarında olan 14 ədəd nəqliyyat vasitələrinə GPS nəzarət sistemlərinin quraşdırılması işləri üzrə keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 24 avqust 2020-ci il tarixli qərarına əsasən, "Qafqaznet" MMC qalib elan edilmişdir. Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## açıq tenderə dəvət edir

Tender 1 LOT üzrə keçirilir:

**LOT 1 - Stansiya qurğularının istismarında tələb olunan PKSV stansiya naqilinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **LOT 1 üzrə 350 (üç yüz əlli ) manat (ƏDV daxil)** iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: "Azərpoçt" MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **22 sentyabr 2020-ci il saat 11:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış;*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **30 sentyabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **01 oktyabr 2020-ci il saat 11:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada **etender@gov.az** dövlət satınalmalarının vahid internet Portalında aparılır.

*Tender komissiyası*

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyi və kollektivi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin birinci müavini Mübariz Cabbarova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları İradə Ələsgərovaya anası

**TOFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7353
Sifariş 2057
Qiyməti 40 qəpik